Xalqın qəzeti!
# Xalq qəzeti
№ 31 (30725) 12 fevral 2025-ci il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Konstitusiya və Suverenlik İli ölkəmizə demokratiya təntənəsi yaşadır

## Azərbaycan Prezidenti bununla bağlı geniş Tədbirlər Planını təsdiq etmişdir



Səhifə ⇨ 2

## Naxçıvan məhsulları dünya bazarlarında



**Sahibkarlığın inkişafı iqtisadi tərəqqinin əsas meyarlarındandır. Buna görə də ölkəmizdə özəl sektorun inkişafı ilə bağlı dövlətin aydın strategiyası mövcuddur. Hazırda bu strategiyanın mühüm istiqamətlərindən birini ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi, istehsalyönümlü müəssisələrə lazımi şəraitin yaradılması, rəqabətqabiliyyətli ixrac məhsullarının həcminin genişləndirilməsi təşkil edir.**

(ardı 9-cu səhifədə)

## “Bu yerlərdən, sanki, vəhşi qəbilə keçmişdi”

**Son günlər Ermənistan mətbuatının hansı səhifəsinə nəzər salsaq, Bakıda terrorçu, təxribatçı, işğalçı və**





**quldurlar qismində məhkəmə qarşısına çıxarılan hay bandası haqqında söz açıldığını görürük. Üstəlik, bütün xəbər, rəy və ya analitik materiallarda “Bakıda qanunsuz saxlanılanlar” ifadələri qabardılır. İnsan nə qədər rəzil, riyakar və şərəfsiz olmalıdır ki, qonşu ölkənin ərazisinin 20 faizini viranəyə çevirən, on minlərlə günahsız insanın qətlinə imza atan, törətdiyi soyqırımlarla fəxr edən vəhşi xislətli dələduzların məhkəmə qarşısına çıxarılmasını “qanunsuz saxlanılanlar” adlandırsın?**

(ardı 8-ci səhifədə)

## Mərkəzi Bank pul siyasətini təkmilləşdirir

**Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov “Dünya inkişafı haqqında Hesabat”ın təqdimatı mərasimində respublikamızın Dünya Bankı ilə sıx əməkdaşlığına mühüm önəm verildiyini, bu siyasətin ölkə tərəfdaşlıq çərçivəsinin strateji prioritetlərinə uyğun gəldiyini bildirib.**

O bildirib ki, iqtisadiyyat, təxminən, 3,8 dəfə, qeyri-neft sektoru 3,7 dəfə artan Azərbaycanda makroiqtisadi sabitliyin qorunması, maliyyə inklüzivliyinin gerçəkləşdirilməsi və bu çərçivədə işlərin davam etdirilməsi prioritet istiqamətdir. Mərkəzi Bank pul siyasəti mexanizminin möhkəmləndirilməsini də bu prinsipə əsaslanaraq həyata keçirir.




## Zatulin, Valuyev və Rusiya düşüncə sistemindəki çatlar

*Yaxud ictimai ajiotajın “Zatulin zirvəsinə” baxış*

**“Bəzən mənə elə gəlir ki, Rusiya yalnız bütün dünyaya necə yaşamamalı və nə edilməməli olduğunu göstərmək üçün var”. Bu fikri dilə gətirən, yazıya köçürən də rusdur, dövrünün tanınmış yazıçısı, filosofu və publisisti Pyotr Yakovleviç Çaadayevdir. O Çaadayev ki, 1794-1856-cı illərdə yaşamışdı. Əlbəttə, onun sürdüyü ömrə yaşamaq yox, daha çox çürümək demək daha düzgündür. Çünki yazıçı çar Rusiyası hakimiyyəti tərəfindən dəli elan edilmişdi. Çaadayevə qayıdacağıq. Hələlik isə...**

(ardı 3-cü səhifədə)

## “Vaşinqton post”un Vardanyan təəssübkeşliyi


The Washington Post

Trump promised peace between Armenia and Azerbaijan. He can start here.



Səhifə ⇨ 4

## Oxşar simalar, eyni “nağıl”lar

*Ermənilər Ağ evin yeni administrasiyasına yarınmağın yollarını axtarırlar*

**ABŞ Prezidenti Donald Trampın etimadını qazanmaqla Azərbaycana qarşı təzyiqləri davam etdirməyi hədəfləyən ermənilər bütün vasitələrə əl atırlar. Əvvəlcə bu məqsədlə Nikol Paşinyanın ABŞ-a səfəri təşkil olundu, müxtəlif görüşlər keçirildi. İndi isə məktub kampaniyasına start verilib.**

Böyük Kilikiya evinin katolikosu I Aram ABŞ Prezidentinə məktub ünvanlayıb. O, Donald Trampdan Azərbaycana qarşı hərbi cinayətlərdə ittiham olunan və Bakıda məhkəməsi davam edən ermənilərin azad olunmasında kömək göstərməsini xahiş edib. Bölgə ermənilərinin “vətənlərinə qayıtmaları hüququnun” təminatı üçün təkidli davranmağa çağırıb, “təcavüzün qarşısının alınması üçün” Azərbaycana təzyiq göstərilməsi istənilib.



Sonra namə göndərmək növbəsini dörd ABŞ konqresmeni davam etdirib. Konqresmenlər Frank Pallone, Qas Bilirakis, Bred Şerman və Devid Valadao ABŞ Dövlət katibi Marko Rubioya müraciətlərində Dağlıq Qarabağda (?) etnik təmizləməyə (?) görə Azərbaycanı məsuliyyətə cəlb etməyə çağırıblar.

(ardı 5-ci səhifədə)

## Qəzzanın taleyi siyasi oyuna çevrilir



Səhifə ⇨ 11

# “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli 432 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 11 fevral 2025-ci il**

# “Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli 1143 nömrəli Sərəncamının icrası ilə əlaqədar, qida təhlükəsizliyi sahəsində şəffaflığı və hesabatlılığı, idarəetmə sisteminin təkmilləşdirilməsini, dövlət nəzarətinin gücləndirilməsini və görülən işlərin səmərəliliyinin artırılmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** “Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi” informasiya sistemi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi:

2.1. “Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi” informasiya sisteminin (bundan sonra – Sistem) formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Sistemin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq “Hökumət buludu”nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Sistemin “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**4.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxs bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 4-cü hissəsində qeyd edilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə altı ay müddətində zəruri tədbirlər görsünlər və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 11 fevral 2025-ci il**

# “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yük daşımalarının inkişafı məqsədilə əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il dekabrın 21-də Moskva şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yük daşımalarının inkişafı məqsədilə əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 11 fevral 2025-ci il**

# İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneyi həzrətlərinə

**Möhtərəm Ayətullah Xameneyi həzrətləri!**

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlər əsrlərdən bəri dostluq və mehriban qonşuluq şəraitində yaşamış, ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsindən güc alır. Biz bu təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin inkişafına və əməkdaşlığımızın genişlənməsinə xüsusi önəm veririk.

Hazırda ikitərəfli gündəlikdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər yer almaqdadır. Hesab edirəm ki, mövcud imkanlardan yararlanaraq ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə nail ola bilərik.

İnanıram ki, qarşılıqlı hörmətə və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran münasibətləri dövlətlərimizin və xalqlarımızın mənafelərinə uyğun inkişaf edərək bölgədə sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 7 fevral 2025-ci il**

# İran İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Məsud Pezeşkiana

**Hörmətli cənab Prezident!**

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə İran arasında dövlətlərarası əlaqələrin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Ölkələrimiz arasında münasibətlər sıx tellərlə bir-birinə bağlı olan xalqlarımızın ortaq tarixi, dini və mədəni dəyərlərindən qaynaqlanır.

Hazırda ölkələrimiz iqtisadi-ticari, nəqliyyat, energetika və digər sahələrdə səmərəli əməkdaşlıq edirlər. Qarşılıqlı fəaliyyətimizin əhatə dairəsinin daha da genişləndirilməsi və yeni məzmunla zənginləşdirilməsi üçün əlverişli imkanlar mövcuddur.

İnanıram ki, ölkələrimizin rifahı, bölgənin sabitliyi və təhlükəsizliyi naminə Azərbaycan–İran münasibətləri və əməkdaşlığı bundan sonra da dostluq, qardaşlıq və mehriban qonşuluq prinsipləri əsasında inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 7 fevral 2025-ci il**

# Somali Prezidenti Azərbaycana rəsmi səfərə gəlib



**Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud fevralın 11-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Somali Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

# Əlaqələndirmə Qərargahının növbəti iclası Xankəndi şəhərində keçirilib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xankəndi şəhərində Qərargahın növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə quruculuq və bərpa işlərinin geniş vüsət aldığını qeyd edib. Dövlətimizin başçısının təsdiq etdiyi “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq həyata keçirilən irimiqyaslı layihələr çərçivəsində müasir infrastruktur qurulur, keçmiş məcburi köçkünlərin rahat şəkildə öz yurdlarına qayıtmaları və məskunlaşmaları üçün yaşayış məntəqələri salınır, ərazilərdə zəruri şərait yaradılır.

30 ilə yaxın davam edən işğal dövrünün geridə qaldığını, 44 günlük Vətən müharibəsi və uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyinin tam bərpa edildiyini bildirən Qərargahın rəhbəri bu tarixi nailiyyətin Ali Baş Komandanın siyasi müdrikliyinin, qətiyyətinin, Azərbaycan dövlətinin gücünün, xalqımızın birliyinin və iradəsinin təcəssümü olduğunu vurğulayıb.

Dövlətimizin başçısı tərəfindən işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın milli prioritetlərdən biri kimi müəyyən edildiyi, bu sahədə görülən işlərin daim nəzarətdə saxlanıldığı iclas iştirakçılarının diqqətinə çatdırılıb. Qeyd edilib ki, Böyük Qayıdışın vaxtında və keyfiyyətli şəkildə təmin edilməsi məqsədilə müəyyənləşdirilmiş hədəflərə nail olmaq üçün bütün resursların səfərbər edilməsi, bərpa-quruculuq layihələrinin əlaqəli və planlı şəkildə icrası və vaxtında təhvil verilməsi mühüm əhəmiyyətə malikdir.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası istiqamətində, habelə Proqram çərçivəsində əhalinin dayanıqlı məskunlaşması və məşğulluğunun təmin edilməsi, iqtisadi fəallıq və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması sahələrində görülən işlər barədə məlumatlar təqdim olunub.

Böyük Qayıdışın əsas komponentlərindən biri olan dayanıqlı məskunlaşmanın təmin edilməsi çərçivəsində işğaldan azad olunmuş ərazilərə geri qayıtmış keçmiş məcburi köçkünlər, dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsilalanlar da daxil olmaqla, həmin ərazilərdə hazırda 40 minə yaxın insanın yaşadığı və fəaliyyət göstərdiyi diqqətə çatdırılıb.



İşğaldan azad edilmiş ərazilərdə məskunlaşmanın dayanıqlı olması üçün aparılan bərpa və quruculuq işləri ilə yanaşı, köçürülən əhalinin məşğulluğunun təmin olunması istiqamətində də zəruri işlərin görüldüyü bildirilib. Bununla yanaşı, əhali arasında təhsil və peşə bacarıqlarının artırılması üçün müxtəlif təlim və peşə kursları təşkil edilir.

Əlverişli iqlim mühitinə və coğrafi şəraitə malik Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar, sənaye və turizm sahələrinin inkişafı baxımından böyük imkanların olduğu qeyd edilərək, məskunlaşma prosesi ilə paralel olaraq, istehsal və emal, ticarət, xidmət, sənaye müəssisələrinin qurulduğu, müxtəlif iqtisadi fəaliyyət sahələrinin yaradıldığı, dövlətimizin başçısının sərəncamlarına uyğun olaraq ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün maliyyə resurslarına çıxış imkanlarının genişləndirildiyi, vergi və gömrük güzəştlərinin, həmçinin digər stimullaşdırıcı mexanizmlərin tətbiq olunduğu iclas iştirakçılarının diqqətinə çatdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə, o cümlədən Ağdam və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında ümumilikdə 400-dən çox müəssisənin fəaliyyət göstərdiyi, artıq Ağdam Sənaye Parkındakı müəssisələrdə istehsal olunan məhsulların ixracına başlanıldığı vurğulanıb.

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin ərazilər üzrə xüsusi nümayəndəliklərinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə məruzələr dinlənilib.

İclasın sonunda Böyük Qayıdışla bağlı görülən işlərin mühüm əhəmiyyəti, məqsədlərə çatmaq üçün bütün imkanların səfərbər olunmasının zəruriliyi bir daha iclas iştirakçılarının diqqətinə çatdırılıb, Azərbaycan Respublikası Prezidentinin Əlaqələndirmə Qərargahı qarşısında qoyduğu vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıqlar verilib.

Səfər çərçivəsində Xankəndi və Şuşa şəhərləri ərazilərində bir sıra obyektlərə baxış keçirilib.

# Zatulin, Valuyev və Rusiya düşüncə sistemindəki çatlar

**(əvvəli 1-ci səhifədə)**





Rusiya–Azərbaycan münasibətlərində hansısa gərginliyin yaşanması anındaca ölkənin ermənipərəst dairələrinin dərhal işə düşmələrinə şərait yaradır. Onları, obrazlı desək, şikarını gözləyən yırtıcılar kimi dəyərləndirmək daha münasibdir. Vəziyyət həmişə eyni olub. Özü də məsələ bir-iki naqqalın ağzına gələni danışmasında deyil. Başlıca məqam ölkənin ictimai rəyində belələrinin səslərinin daha ucadan eşidilməsindədir. Elə bil, ulaşırlar.

Bəli, əminliklə deyə bilərik ki, problem fərdlərdə yox, bütövlükdə Rusiyanın özündədir. Bu gün ölkənin rəsmiləri sərnişin təyyarəmizin vurulmasına görə məsuliyyəti öz üzərlərinə götürüb üzr istəyəcək qədər mərd davrana bilmirlərsə, bunu özlərinə yaraşdırmırlarsa, hava gəmimizin, guya, quşlarla toqquşduğuna, onun içərisində qaz balonunun partlamasına dair cəfəngiyyatları tirajlayırlarsa, Rusiya Dövlət Dumasında deputat qismində oturmuş Nikolay Valuyev kimi parabeyinlərdən nə gözləyəsən?

Ağızlarına gələni danışan valuyevlər, zatulinlər və digərləri rus şovinizminin əsrlərdir dəyişməyən sifətini təmsil edirlər. O sifəti ki, dövlət siyasətinə də təsirini göstərir. Buna görə də Rusiya üçün xarici siyasət müstəvisində yalnız iki baxış var. Ya hansısa dövləti və ya xalqı düşmən kimi görmək, ya da kölə olaraq təsəvvürə gətirmək. Üçüncü normal baxış yoxdur və görünür, heç zaman olmayacaq da.

Bugünkü Rusiya çarizmin və ondan sonra mövcud olmuş sovet imperializminin qalığı, daha doğrusu, artığıdır. Bu fikirlərimiz heç də Rusiyanı özünə vətən seçmiş xalqların və millətlərin, o cümlədən azərbaycanlıların xətrinə dəyməsin. Çünki onlarlıq heç nə yoxdur. Onlarlıq nə isə olsaydı, bu gün Rusiya dünyada tolerantlıq nümunəsi kimi tanınardı. Problem ölkənin düşüncə sisteminin hələ də "valuyevçilikdən", "zatulinçilikdən" asılı hala düşməsində, mütərəqqi nə isə düşünməyəcək qədər qüsurlu mahiyyətindədir.

Bunun nəticəsidir ki, Rusiyanın dost bildiyi ölkə, demək olar ki, yoxdur. Çünki onun düşüncə sistemi başqa xalqlara yuxarıdan aşağı baxmaq üzərində qurulub. Halbuki, həmin başqaları olmasa, Rusiya da olmazdı. Biz hələ tarixə gedib nə üçün başqalarından ibarət Rusiyanın olmasını şübhələndirmirik. Məsələn, ölkənin işğalçı mahiyyətindən danışmırıq. Halbuki, danışmalı və sual verməliyik ki, Rusiyanın Azərbaycanda nə işi var idi? Soruşmuruq ki, hansı haqla Sovet Rusiyası Azərbaycana qoşun yeritmiş, Xalq Cümhuriyyətimizin, dövlətimizin varlığına son qoymuşdu? Çünki aqressiyanın haqq və ədalətlə heç bir əlaqəsi yoxdur. Ancaq təhlükə indi də var, çünki təcavüzkarlığı və zoru haqq işi bilənlərin, özlərinə haqq qazandıran mütriflərin əksər hissəsi Dövlət Dumasında əyləşib və onların çirkli ağızları yumulmur.

Bəli, Qərb Rusiyaya qarşı haqsızdır və ölkəni parçalamaq istəyir. Bu da Qərb imperializminin mərəzidir. Əvvəl hədəfdə SSRİ idi, indi Rusiya. SSRİ dağıldı, Rusiya qaldı. Ancaq durum rus düşüncə mərkəzlərinə dərs olmadı. Onlar SSRİ boyda nəhəngin əllərindən çıxmasının səbəblərini özləri üçün götür-qoy etmədilər. Anlamadılar ki, xalqların birliyi adı ilə irəli sürdükləri beynəlmiləlçilik saxta mahiyyət daşıdığı üçün belə bir duruma düşdülər. Səmimi davranmadıqlarının fərqinə varmadılar. Bu gün də eyni havadadırlar.

Baxın, valuyevlər ölkədən azərbaycanlıları qovmaq məsələsini qaldırır, ayrı-seçkilik edirlər. Guya ki, Azərbaycana qarşı mübarizə aparırlar. O boyda ölkənin başqa mexanizmi, problemləri həll etmək üçün irəli sürdüyü mütərəqqi yol yoxdur. Doğrudan da faciədir, haqqında söz açdığımız problemlər də elə bundan qidalanır. Bunun nəticəsidir ki, Qərb də Rusiyanın üzərinə ayaq aça bilir. İkincinin birinci ilə mübarizə baxımından tapındığı dəyərlər yoxdur. Deməli, qarşıda daha böyük məğlubiyyətlər var.

Bu gün valuyevlər azərbaycanlılara nifrəti təlqin edirlər. Öz aləmlərində ölkəmizə təzyiq göstərəcəklərini düşünür, hesab edirlər ki, geri addım atacağıq. Nə etməli imişik? Rusiyanın quldur başlı rəzillərinin təyyarəmizi vurmalarının üstündən sükutla keçməliymişik! Niyə? Hansı səbəbə? Ona görə ki, həmin quldurlar ölkə üçün əhəmiyyətlidirlər, vazkeçilməzdirlər? Bu, nə yanaşmadır?!

Valuyevlərin, zatulinlərin püsgürdükləri nifrət Rusiyanın birliyinə və bütövlüyünə böyük təhdiddir. Çünki bugünkü Rusiya təkcə azərbaycanlıların deyil, eləcə də digər xalqların birgə məhsuludur. Rusiya həmin xalqların törəmələrinin məmləkətidir. Bu reallığı dərk etməyib hələ də ayrı-seçkilik toxumlarını səpənlər anlamalıdırlar ki, danışdıqları hər kəlmə, işlətdikləri hər sərsəm ifadə ölkəyə son dərəcə böyük zərbədir. Amma onların hər şeyin fərqində olduğu qənaətindəyik. Sadəcə, belələri öz ölkələrinə də düşmən kəsilmiş satqınlardır. Bu satqınlar yaxşı anlayırlar ki, Rusiyanı parçalamağın ən yaxşı yolu milli ayrı-seçkiliyi qızışdırmaqdır. Təəssüf ki, ölkədə satqınlara qarşı ictimai müqavimət hissi yoxdur. Olsaydı, yaramaz məxluqlar Dövlət Dumasının kreslolarında rahat əyləşməzdilər.

Əlbəttə, Rusiyanın şovinist kəsiminin anti-Azərbaycan köklənişi ilə bağlı ən müxtəlif detallardan söz açmaq mümkündür. Ancaq hesab etmirik ki, onların hər birinə diqqət yetirmək lazımdır. Çünki prinsipcə, hər şey məlumdur. Sonda bir daha əvvəldə vurğuladığımız fikrə qayıtmaq istərdik. Söhbət Çaadayevin bildirdiklərindən gedir. Bəli, valuyevlərin, zatulinlərin, milonovların və digərlərinin hərəkətlərinə, eləcə də Rusiya dövlətinin dolayısı ilə belələrinin üslubuna xas davranış tərzinə nəzər salanda, zamanında dəli kimi qələmə verilmiş yazıçının nə qədər haqlı olduğunu söyləmək mümkündür. Doğrudan da Rusiya hazırda dünyaya nəyin edilməli olmadığını göstərməyin nümunəsidir. Bütün olmazlar ölkədə böyük "müvəffəqiyyətlə sınaqdan çıxır".

"Dəli" Çaadayevin isə daha bir fikri də var və həmin fikri şərhsiz təqdim edərək yazımıza son nöqtəni qoyuruq: "Gözlərim, dodaqlarım bağlı, başımı əyərək vətəni sevməyi öyrənməmişəm. İnsan ancaq ölkəsini aydın görsə, ona faydalı ola bilər. Düşünürəm ki, kor-koranə sevginin vaxtı keçib. İndi vətənimizə, ilk növbədə, həqiqət borcluyuq".

***Əvəz RÜSTƏMOV,***
***XQ***

# Erməni vandalizmi bəşəri dəyərləri də tanımır

## *İrəvandakı Azərbaycan məscidində turistlərə spirtli içkilər təklif olunur*





**Bu barədə Azərbaycanın Tehrandakı səfiri Əli Əlizadə "X" sosial şəbəkəsində paylaşım edib: "İşğal illərində Ermənistan Qarabağda bütün məscidlərimizi təhqir edib və tamamilə dağıdıb. İndi də İrəvandakı Azərbaycan məscidini təhqir edir. Təpəbaşı məscidində turistlərə spirtli içkilər təklif edilir. Beynəlxalq ictimaiyyət və təşkilatlar tədbirlər görməli, bu vandalizmin qarşısı alınmalıdır".**

Səfirin paylaşımından aydın olur ki, Ermənistan hələ də məkrli niyyətlərindən əl çəkmək istəmir. İrəvanda azərbaycanlıların izini itirmək, ümumiyyətlə, bizə məxsus nə varsa, yox etməyə çalışır. Amma yanılır, bu ərazilərin bizə məxsus oluğunu sübut edən tarixi qaynaqlar var. Bu məscid də onlardan biridir. Nə qədər izini itirməyə çalışsalar da, alınan deyil. Çünki Təpəbaşı məscidinin qədim və bəlli tarixi var.

Oxuculara xatırladaq ki, Təpəbaşı keçmişdə İrəvan şəhərinin tarixi məhəllələrindən biri olub. Hazırkı İrəvanın mərkəzini təşkil edir. Ermənilər tərəfindən aparılan, 100 ildən çox davam edən və sistemli xarakter daşıyan söküntü işlərinə baxmayaraq, onun son qalıqları günümüzə qədər gəlib çıxıb. Tarixi abidələrlə zəngin, görkəmli azərbaycanlıların yaşadıqları bu məhəllənin yerində ermənilər yeni yaşayış məhəlləsi salmağa çalışır. Bu sahədə onların "təcrübəsi" var. Azərbaycanlıların qəbiristanlığının yerində yeni yaşayış məhəlləsi salıblar. Məhəllədə yerləşən Təpəbaşı minarəsi 1960-cı illərdə uçub. Sonralar məscidin həyətində və ətrafında gecəqondular inşa edilib. Hazırda dağılmış vəziyyətdə olan məsciddə, eləcə də imam otağında erməni ailələri məskunlaşıb. Abbasqulu xanın evini ermənilər "Xanın evi" adlandırırlar.

Təpəbaşı məhəlləsində daha bir məscid var – Göy məscid. Bu gün İrəvanda salamat qalan yeganə məsciddir. Bu məscid də hayların nifrətindən qurtula bilməyib. Orada erməni ailələri yerləşməsə də, ciddi müdaxilələrə məruz qalıb. **Bu barədə XQ-yə tədqiqatçı, tarixçi alim Səbuhi Hüseynov danışır:** "Göy məscid Hüseynəli xan tərəfindən inşa edilib. Son araşdırmalarda Hüseynəli xanın məhz Göy məsciddə dəfn olunduğu barədə məlumatlara rast gəlinir. Bir məqamı da vurğulayım ki, məscidin həyətindəki 1790-cı ilə aid daş kitabə xanın ailəsindən olan qadınlardan birinə aiddir. Abidə ilə bağlı bütün sənədlər Azərbaycan arxivindədir. İran tərəfindən bu məscidin "Fars məscidi" adlandırılması qəbuledilməzdir.

Şeyxülislamlıq arxivində bununla bağlı kifayət qədər sənəd var. Artıq Göy məscid dünyada Azərbaycan məscidi kimi tanınmalıdır. Məlum olduğu kimi, 1917-ci ildə İrəvanda cəmi 100 nəfər fars yaşayıb. 1831–1920-ci ilə qədər İrəvanda yaşayanların əksəriyyəti azərbaycanlılar olub. Əlbəttə, 100 nəfərə məscid tikilməzdi, artıq Göy məscidin adının dəyişdirilməsinə son qoyulmalıdır, Təpəbaşı məscidi isə əvvəlki vəziyyətinə qaytarılmalıdır".

S.Hüseynovun sözlərinə görə, Təpəbaşı məscidində turistlərə spirtli içkilərin satılması hayların dini, mədəni və tarixi dəyərlərimizə olan nifrətindən irəli gəlir: "Heç kimə sirr deyil ki, Ermənistan hər zaman Azərbaycana qarşı hərbi təcavüz və işğal siyasətinin tərkib hissəsi kimi maddi-mədəniyyət və dini abidələrin dağıdılması, talan edilməsi, mənimsənilməsi, mənşəyi və təyinatının dəyişdirilməsi kimi vandalizm siyasəti yürüdüb".

**Qərbi Azərbaycan İcmasının ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülviyyə Zülfiqar** da tarixi Azərbaycan şəhərindəki maddi irs abidəmiz olan Təpəbaşı məscidində spirtli içki verilməsini bütünlükdə İslam aləminə hörmətsizlik kimi qiymətləndirib: "Ermənistanda Təpəbaşı məscidi də daxil olmaqla, Qərbi azərbaycanlılara məxsus 300-dən çox məscid dağıdılmış vəziyyətdədir. 600-ə yaxın qəbiristanlıq isə yerlə-yeksan edilib. Hələ dağıdılmamış Göy məscid isə başqa millətə məxsus kimi təqdim edilir".

Bu açıqlama ilə yanaşı, Qərbi Azərbaycan İcması sərt bəyanatla çıxış edib: "Ermənistan tərəfinin Azərbaycan mədəniyyət abidələrini qəsdən məhv etməsi və Azərbaycan xalqının indiki Ermənistan ərazisindəki mədəni izlərini silməsi, beynəlxalq hüququn, o cümlədən 1954-cü il Haaqa Konvensiyası və UNESCO-nun müvafiq qərarlarının kobud şəkildə pozulmasıdır. Ermənistanın bu addımları bölgədə sülh və barışığın əldə olunmasına ciddi maneə törədir.

Mədəni irs obyekti sayılan Təpəbaşı məscidinin dağıdılmasına, qalıqlarının isə bu cür təhqiramiz şəkildə istifadəsinə qətiyyətlə etiraz edərək, UNESCO-nu və digər beynəlxalq təşkilatları təxirəsalınmaz addımlar atmağa, o cümlədən məscidin və digər dağıdılmış Azərbaycan abidələrinin bərpası və qorunması üçün Ermənistana təzyiq etməyə çağırırıq".

**QMİ-nin əməkdaşı, ilahiyyatçı Samid Quliyev** isə bildirdi ki, Ermənistanın Qarabağda işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqına məxsus qədim tarixi-dini abidələr dağıdılaraq yerlə-yeksan edilib, bir qismi isə saxtalaşdırılaraq erməniləşdirilib: "Bu vandalizm hərəkətləri tarixi İrəvanın ərazisində davam etdirilir. Son günlər sosial şəbəkədə yayılmış kadrlarda tarixi Azərbaycan məscidi ərazisində spirtli içkilərin verilməsi müşahidə edilir. Bu, inanclı insanlara qarşı hörmətsizlik, monoteist dinlərdə bəyənilməyən əməldir".

İlahiyyatçı daha sonra qeyd edib: "Ümumiyyətlə, İslamda bütün dinlərə hörmətlə yanaşma tövsiyə olunur. Azərbaycan müxtəlif dinin nümayəndələrinin mehriban şəraitdə yaşadığı yerlərdən biridir. Ölkəmizdə miltikultural dəyərlər gözlənilir. Məsələn, mən müsəlman din xadimiyəm, pravoslav kilsəsinin, həmçinin katolik dini icmasının nümayəndələri ilə şəxsi münasibətlərim var. Bunun özü multikulturalizmin bariz nümunəsidir. Amma, təəssüf ki, bunu Ermənistanda görə bilmirik".



Onu da qeyd edək ki, haylar yalnız Təpəbaşı məscidində deyil, digər məscidlərimizdə də dağıntılar və vandalizm aktları törədiblər. 30 il davam edən işğal dönəmində Şuşa məscidini də "Fars məscidi" adlandırıb, İran şirkətlərinə təmir etdiriblər. Özü də fars memarlığı üslubunda. Lakin 44 günlük müharibədəki qələbəmiz ermənilərin və farsların Qarabağdakı bu cür "oyun"larına son qoydu.

Ağdam məscidi də eyni taleyi yaşayıb. Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilən Ağdam Cümə məscidi işğal dövründə erməni vandalizminə məruz qalan yüzlərlə tarixi-dini abidələrimizdən biridir. Məbədin minarələri daxildən qismən sökülmüş, məscidin tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız vəziyyətə salınıb. Məsciddə İslamı əks etdirən nə varsa məhv edilib. Eyni zamanda, işğal dövründə ermənilər məsciddə mal-qara, donuz saxlayıb, həmçinin ondan müşahidə məntəqəsi kimi istifadə ediblər.

Haylar İrəvanın tarixi Azərbaycan şəhəri olduğunu həzm edə bilmir və bu səbəbdən vandalizmə yol verirlər. Bəzi Qərb siyasətçiləri və ziyalıları bu cür saxtakarlıqları görməzdən gəlirlər. Sanki İrəvanda azərbaycanlılara məxsus məscid yoxdur. Bunun əvəzində isə işğaldan azad etdiyimiz ərazilərdəki xristian abidələrinin gələcək taleyindən "narahatlıq" keçirirlər. Bu cür hay-küy salanların məqsədi xristianlığın deyil, Ermənistanın təəssübünü çəkməkdir.

Ermənistanın dövlət səviyyəsində müsəlman abidələrinə qarşı törətdiyi vəhşiliklərə gözünü, ağzını və qulağını bağlamaq yapon pritçasındakı "üç meymun"u yada salır. Ermənistanın Qərbi azərbaycanlılara məxsus abidələrə qarşı bu kimi davranışlarına beynəlxalq qurumlar, UNESCO, Roma papası, İslam Əməkdaşlıq Təşkilatı... həssaslıq göstərməlidirlər.

**P.S.** Rəsmi məlumata görə, işğal dövründə Qarabağ və ətraf rayonların ərazilərində rəsmən fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınmışdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Moskvanın ləngitdiyi etiraf




**Rusiya ilə Azərbaycan arasında məlum səbəbdən gərginliyin yaşandığı bəllidir. O da aşkar görünür ki, Kreml bu gərginliyi aradan qaldırmaq əvəzinə anti–Azərbaycan təbliğatı ilə məsələni daha da qəlizləşdirir. İş o yerə çatıb ki, mülki təyyarəmizin vurulmasının günahkarı bunda Azərbaycanı ittiham etməyə başlayıb.**

Azərbaycanın Rusiya ilə heç bir problemi yoxdur. Tərəflər arasında strateji müttəfiqlik səviyyəsinə çatmış münasibətlərin birdəfəlik pozulacağı, müvəqqəti gərginliyin hərbi toqquşma mərhələsinə keçməsi də real deyil.

Dünyada, bölgədə geosiyasi vəziyyət dəyişib. Azərbaycan artıq o ölkə deyil ki, ərazisində Sumqayıt hadisələri təşkil etsinlər, Yanvar qırğını törətsinlər, Xocalı soyqırımının gerçəkləşməsinə dəstək versinlər... Bunların hamısı ötən əsrdə, hətta ötən minillikdə qaldı. Müəmmalı görünən məsələ Rusiyanın Azərbaycandan istəyinin nədən ibarət olmasıdır. Əslində, 50 gün bundan əvvəl baş vermiş təyyarə qəzası Rusiya üçün Azərbaycanla münasibətlərinin sınaq nöqtəsinə çevrildi. Moskvanın bu situasiyada fakta, məntiqə və reallığa uyğun davranmaması ikitərəfli münasibətlərdə boşluğun yaranmasına rəvac verdi. İndi bu boşluğu üşüncü qüvvələr, həm də Azərbaycanı və Rusiyanı sevməyən güclər doldurmağa çalışırlar. Bunun məsuliyyəti də Moskvanın boynundadır.

Kreml doğrudanmı Bakı ilə "körpüləri yandırmaq" siyasətini yeridir? Hazırda ikitərəfli münasibətlərdə müşahidə olunan sərinləşmənin motivinin təkcə aviaqəza olmadığı ehtimalını səsləndirən siyasi ekspertlərlə razılaşmamaq olmur. Bəs, bu qarşıdurmada Rusiya nə qədər irəli gedə bilər? Münasibətlərin normallaşması üçün Şimal qonşumuzdan gözləntimiz nədir? Bu və ya digər suallara qəzetimizin əməkdaşlıq etdiyi daimi ekspertlərlə aydınlıq gətirməyə çalışdıq.

*

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev Azərbaycan–Rusiya münasibətlərində yaranmış böhranın ciddi təhlilə ehtiyac duyduğu qənaətindədir:** "Ortada aydınlıq



tələb edən bir neçə məsələ var. Böhranın əsas səbəbi AZAL-ın sərnişin təyyarəsinin vurulması ilə bağlı hadisədir. Doğrudur, Rusiya tərəfi təyyarəmizi qəsdən deyil, təsadüfən vurub. Amma, eyni zamanda, məsuliyyətdən qaçır, səhvini etiraf eləmir. Əlbəttə ki, məsələnin maliyyə tərəfi ilə yanaşı, məsuliyyətə bağlı mənəvi tərəfi də var. Moskvanın bundan boyun qaçırması müstəmləkəçilikdən qalmış "velikorus" ab-havanın, imperialist yanaşmanın təzahürüdür. Yəni keçmiş Sovet respublikasına bir qədər yuxarıdan-aşağı baxmaq düşüncəsi də yox deyil. Əgər o vaxt Malayziyanın sərnişin təyyarəsinin Ukraynanın hava məkanında vurulmasında hansısa hərbi-siyasi çalarlar var idisə, Azərbaycanla Rusiya arasında buna bənzər heç bir problem yoxdur. Yaranmış vəziyyətə kənardan baxsaq, aydın görünür ki, burada uduzan Rusiya olacaq.

Kreml isteblişmenti papağını qabağına qoyub fikriləşməli və nəticə çıxarmalıdır ki, istər bölgədə, istərsə də geosiyasi müstəvidə Rusiyanın çəkisi xeyli aşağı düşüb. Bakının tələblərinə gəldikdə isə deməliyik ki, onlar normal və beynəlxalq hüquq çərçivəsindədir. Məhz qəzadan sonra ortaya çıxan və ikitərəfli münasibətləri gərginləşdirən digər məsələ Bakıdakı "Rus evi" ilə bağlıdır. Qeydiyyatdan keçməyən bu "ev" bağlandı. Amma onunla yanaşı, USAID-in də fəaliyyəti dayandırıldı. Azərbaycan heç vaxt imkan verə bilməz ki, kimsə "yumşaq güc"dən yararlanaraq onun daxili işlərinə qarışsın. Artıq məlumatlar var ki, "Rus evi"nin ətrafına müəyyən qüvvələr toplaşır və şübhəli məsələləri müzakirə edirlərmiş.

Azərbaycan həmişə çalışıb ki, Şimal qonşusu ilə münasibətləri daim normal inkişaf eləsin. İqtisadi sahədə Rusiya ilə bir sıra mühüm layihələrimiz var. Bu münasibətlərin, əməkdaşlığın tənəzzülə uğramasını yalnız bizi istəməyənlər arzulayırlar.

Cənubi Qafqazın ən güclü ölkəsi ilə münasibətlərin pozulması Moskvanın da maraqlarına cavab vermir. Amma təyyarə qəzası ilə bağlı Bakının tələbi tam haqlıdır".

*

**Siyasi icmalçı Fərhad Məmmədov hesab edir ki,** Azərbaycanın baş vermiş təyyarə qəzası ilə bağlı haqlı gözləntiləri var: "Amma Rusiyanın tutduğu mövqe bu



gözləntilərə cavab sayıla bilməz. Belə olduqda ikitərəfli münasibətlərdə boşluqlar yaranır. Əlbəttə ki, üçüncü qüvvələr bunu fürsət bilib, həmin boşluğu "doldurmağa" çalışırlar. Bu cür cəhdlər həm Ermənistan, həm də Qərb tərəfindən edilməkdədir. Azərbaycan hələlik bu məsələnin beynəlmiləlləşməsinə rəvac verməyib. Sadəcə, təyyarənin istehsalçısı kimi Braziliya və bir də beynəlxalq ekspert qurumu qəzanın başvermə səbəblərini araşdırmağa qoşulublar. Amma indiki mərhələdə Azərbaycan əmin olsa ki, Rusiya tələb olunan istiqamətdə hər hansı addım atmayacaq, bu halda digər beynəlxalq qüvvələrin prosesə qoşulmasına etiraz etməyəcək. İki ölkə arasında sərinləşmiş münasibətlərin istiləşməsi Rusiyanın atacağı addımlardan asılıdır. Əgər Kreml bununla bağlı düzgün və prinsipial mövqe ortaya qoymasa, bu zaman münasibətlərin soyuma dərəcəsi daha da aşağı düşəcək. Bunun günahkarı da yalnız Rusiya olacaqdır. Yox, əgər Moskva özündən asılı olan addımları atacağı təqdirdə münasibətlərin tez bir zamanda normal məcraya düşməsini müşahidə edəcəyik. Çünki Azərbaycan Şimal qonşusuna qarşı öz siyasətini düşünülmüş və praqmatik şəkildə qurub. Ən əsası isə üçüncü qüvvələrin bu münasibətlərə təsir etməsinə heç vaxt imkan verməyib".

*

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlunun fikrincə,** Rusiya–Azərbaycan mü-



nasibətlərin gərgin səviyyəyə çatmasının birinci təqsirkarı Moskvadakı hakimiyyətin özüdür. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, əgər Rusiya üzərinə düşən öhdəlikləri vaxtında yerinə yetirsəydi belə gərginlik də yaşanmazdı. Axı, Bakı qeyri-mümkün nə tələb edir? Deyirik ki, təyyarəmizi vurmusan, insanlarımızı öldürmüsən, indi də buyur üzrxahlıq elə, zərərçəkənlərə kompensasiya ödə və cinayəti törədənləri cəzalandır. Ondan bütün bu məsələləri dərhal, qısa müddətdə həllini tələb etmirik. Heç olmasa, bununla bağlı rəsmi açıqlama verin, müvafiq tədbirlərin görüləcəyini bildirin. Bunların heç birini etmədiyi bir yana, Rusiyada Azərbaycana qarşı qara piara start verilib.

Azərbaycan qonşu ölkələrin heç biri, xüsusən də Rusiya ilə münasibətlərin gərginləşməsində maraqlı deyil. Bakı birinci addımın Moskva tərəfindən atılacağını gözləyir. Bunun əvəzində nə görürük? Rusiya Dövlət Dumasının deputatları Azərbaycan xalqını aşağılayan açıqlamalar verirlər. Onları cavabı isə mütləq verilməlidir. Bütün hallarda Bakı gərginliyin qalmasının tərəfdarı deyil. Amma Moskva da öz üzərinə düşəni etmir. Rusiya Prezidenti Bakı ilə bir neçə dəqiqəlik telefon danışığında bu məsələni həll edə bilər. Yəni, Azərbaycan Prezidentinə zəng edib bu məsələnin araşdırılacağını söyləsə, gərginlik nisbətən ortadan qalxmış olar. Bunları etmirlər, edəcəkləri də gözlənilmir. Ola bilsin ki, hökumətlərarası komissiyanın toplanmasına ehtiyac yaranıb. İşçi qrupu vəziyyətdən çıxmağın yol xəritəsini hazırlaya bilər. Yoxsa, Azərbaycan əleyhinə təbliğatı gücləndirməklə Rusiyadakı şovinist qüvvələrin əlinə bəhanə verirlər. Onsuz da azərbaycanlı miqrantlara qarşı qaydaları sərtləşdiriblər. Rusiya vətəndaşları olan azərbaycanlı iş adamlarının adlarının çəkilməsini, onların hədəfə alınmasını görürük. Bütün məsuliyyət Moskvanın üzərindədir, çıxış yolunu da özü tapmalıdır".

*

**XQ-yə açıqlamasında politoloq Tofiq Abbasov** diqqəti Rusiya mətbuatında Kremlin tapşırıqlarını icra edən resursların olduğuna yönəltdi: "Rusiyada muzdlu



mətbu orqanları və təşkilatlar var. Misal üçün, biri Ara Abramyanın "bayquş yuvası"dır. Oradan mətbuata sifarişlər verilir. Rusiyada Azərbaycana qarşı mütəşəkkil şəkildə işləyən media resursları var. Həmin qüvvələr ermənilərin ruporu olmaqdan yorulmayıblar. Xaricdə oturanlar isə ölkəmiz barədə feyk-məlumatlar yayırlar. Bizim media da azaddır, hansısa qəzetə, yaxud sayta deyə bilmərik ki, bunu niyə yazırsınız?! Bu, təbii hiddətdir. Əslində, Rusiyada ikili standartlara Qorbaçovun dövründən yol verilirdi. Bizim səsimizi boğur, ermənilərə tribuna verirdilər. İndi isə Solovyov kimilər türkofob və islamofob saxta məlumatları Rusiyanın dövlət telekanalına çıxarıb danışırlar.

Rusiyanın siyasi dairələrindəki bəzi "siyasi dəllallar" erməni sevdası ilə yaşadıqlarını gizlətmirlər. Moskva bilməlidir ki, Azərbaycan xalqı təyyarə hadisəsini ağrı ilə yaşadı. Əslində, Rusiyaya ayıb olmalıdır ki, öz vətəndaşlarının da həlak olduğu, daha doğrusu, öldürdükləri hadisəyə belə laqeyd yanaşdı. Bəs biz nə etməliyik, susmalıyıq? Bir sözlə, Rusiyadan səslənən iddialar yersizdir. Onlar hər iki tərəfin mətbuatına baxsınlar, nəticə çıxarsınlar: sizin cəmiyyətin bizə münasibəti necədir, bizimkilərin onlara necə? Bizdə heç zaman Rusiya cəmiyyətinə nifrət olmayıb.

Biz Rusiyanı hadisəni qəsdən törətməkdə ittiham etmirik. Üstəlik, qəzada Rusiya vətəndaşları da həlak olublar. Sadəcə, bu cinayəti törədənlər cəzalandırılmalı, zərərçəkənlərə təzminat ödənməli və üzrxahlıq edilməlidir. Yəni siz humanistliyin nə olduğunu bilmirsiniz? Məsələni ört-basdır etməklə heç nə dəyişmir. Rusiya mediası Naxçıvan istiqamətində helikopterin vurulmasını və Qarabağda sülhməramlıların həlak olmasını cavab olaraq yada salır. Əvvəla, biz üzr istədik, üstəgəl, müharibə şəraitində hər şey olur. Ona qalsa, sülhməramlı kontingent də Vardanyanla işbirliyi qurmuşdular. İndi bu məsələlərə yenidən qayıtmalıyıq? Ona görə də Rusiyanın təyyarə hadisəsində məsuliyyəti var və bundan qaça bilməz".

*

Sonda Rusiyanın Azərbaycanla razılaşmaq reallığını qəbul edəcəyi ehtimalı böyükdür. Elə ən optimal sonluq bu ola bilər: Vladimir Putin İlham Əliyevə zəng edir. Moskva Bakının haqlı tələbini qəbul edir və buna uyğun davranır. Bununla da hər şey öz axarına düşür. Bundan itirənlər isə iki ölkə arasındakı münasibətlərdə "yaranmış boşluğu" doldurmağa çalışanlar olacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

# "Vaşinqton post"un Vardanyan təəssübkeşliyi

## *Nəşr dələduz Rubenin xatirinə xristian–müsəlman qarşıdurmasını körükləyir*

**Məlum olduğu kimi, ABŞ Prezidenti Donald Tramp ötən il noyabrın 1-də dövlət başçısı postuna namizəd kimi Böyük Kilikiya evinin katolikosu I Arama zəng vurmuş, Qarabağ ermənilərinə dəstəyini ifadə edərək, onların təhlükəsizlik zəmanəti ilə geri qayıtmaq hüquqlarından söz açmışdı. Aydındır ki, ABŞ Prezidentliyinə namizədlərin ermənilərə hansısa formada simpatiya aşılayan tezisləri və ya vədləri bir növ adət halını alıb. Görünür, Tramp da ritualdan kənara çıxmadığından, I Arama zəng edib. Amma bu, hələ heç nə demək deyil.**


The Washington Post

Trump promised peace between Armenia and Azerbaijan. He can start here.

Armenian Ruben Vardanyan is on trial in Azerbaijan. His crime? Helping others.

Opinion
David Ignatius



O da məlumdur ki, I Aram Birləşmiş Ştatlara səfər gerçəkləşdirməklə Trampa həmin telefon zəngini xatırladıb və onu, bir növ, sözünün üstündə durmağa çağırıb. Mövcud çağırış anlamında isə "Vaşinqton Post" qəzetinin bir qədər də "irəli getdiyini" deyə bilərik. Çünki nəşrdə məsələ daha dramatik şəkildə qoyulub. Belə ki, müəllifi erməni əsilli yazıçı Devid İqnatiusun olduğu məqalədə ABŞ Prezidentinin Ermənistan xristianlarını müdafiə etməyə and içdiyi iddia olunub.

Təsəvvür edin, Tramp özünün andiçmə mərasimində əlini Bibliyanın üzərinə qoymadı, amma "Vaşinqton post" onun boynuna erməni təəssübkeşliyinə dair saxta missiya qoymaq istəyir. Bu təqdimat tərzinin yalnız bir adı var – həyasızlıq. Ancaq sözügedən məqalədəki həyasızlıq motivi tamam başqadır.

Məqalə müəllifi D.İqnatiusun Azərbaycanda həbsdə olan erməni əsilli milyarder, Qarabağdakı canını tapşırmış separatçı rejimdə "dövlət naziri" oyuncaq postunu tutmuş Ruben Vardanyandan aldığı rüşvət səbəbi ilə hərəkətə keçdiyi şübhə doğurmur. Görünür, "Vaşinqton post"un rəhbərliyinin də payı çatıb. Payı çatıb ki, D.İqnatiusun məqaləsində Trampın I Arama telefon zəngi Prezidentin erməniləri qorumağa and içməsi kimi göstərilib.

Bu yerdə D.Trampın ilk dəfə dövlət başçısı postunu tutduğu vaxtlarda "Vaşinqton post" barədəki fikirlərini yada salaq. O, nəşri, eləcə də "Nyu York Tayms" qəzetini saxta xəbər yayıcısı kimi təqdim etmişdi. "Vaşinqton Post" köhnə "ampluasındadır" və saxta xəbər yayıcılığını ermənilər (ilk dəfə deyil), daha dəqiq desək, R.Vardanyanın xeyrinə həyata keçirməklə məşğuldur.

Bəli, "Vaşinqton post" iddia edir ki, D.Tramp xristian erməniləri qoruyacağına and içib və o, andını gerçəkləşdirməyə R. Vardanyanın müdafiəsindən başlaya bilər. Qəzetin təqdimat tərzindəki nüansa diqqət yetirək: "Azərbaycanda erməni Ruben Vardanyan mühakimə olunur və mən Azərbaycanda mühakimə edilən siyasi məhbus Vardanyanın ağır vəziyyətini təqdim etmək istəyirəm. Onu ömürlük həbs gözləyir və bu şəxsin işi daha çox diqqətə layiqdir".

Göründüyü kimi, məqalə müəllifi D.İqnatius qarşısına, necə deyərlər, sarı simlərə toxunmaq hədəfini qoyub. Birincisi, o, ermənilərin xristian olduqları fikrini qabardır. Sanki Vardanyanın günahı müsəlman Azərbaycanında xristian dininin daşıyıcısı kimi çıxış etməsidir, yaxud xristian erməniləri qorumasıdır. Əlbəttə, bundan böyük cəfəngiyyat ola bilməz. Çünki Vardanyana qarşı irəli sürülmüş ittiham kifayət qədər konkret və aydındır. Onun Qarabağda hansı əməllər törətdiyi də həmçinin. Hesab edirik ki, ədalət mühakiməsi hər şeyə aydınlıq gətirəcək. Müəllif D.İqnatius isə özünü və məqaləsinin yayımlandığı nəşri gülüş hədəfinə çevirməklə məşğuldur. Əlbəttə, başqa məqamlar da var. Məsələn, "Vaşinqton Post" iddia edir: "Vardanyanın cinayəti, əgər belə adlandırmaq olarsa, Qafqazın ucqar bölgəsi və vaxtilə əhalisinin əksəriyyəti ermənilərdən ibarət olan Dağlıq Qarabağda erməni müqavimətinə dəstək vermək idi. 2023-cü ilin sentyabrında Azərbaycan qoşunlarının işğalı zamanı bölgədən 120.000 erməni qaçıb. Vardanyan Ermənistanla sərhədi keçmək istəyərkən saxlanılıb".

Deməli, "Vaşinqton post" təmənnalı erməni təəssübkeşliyi naminə bütün media prinsiplərinə, beynəlxalq hüquqa tüpürməyə hazır olduğunu bir daha, bu dəfə R.Vardanyanı müdafiə zəminində göstərir. Qəzet Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu nəzərə almır. Ən ağlasığmaz məqam isə odur ki, nəşr qorumağa çalışdığı şəxsin Qarabağa hansı məqsədlə, haradan göndərildiyinə əhəmiyyət vermir.

Güman edirik, köməkçiləri D.Trampa R.Vardanyanın Rusiya vətəndaşlığından imtina edərək, Qarabağa məhz Kremlin bəzi dairələrinin bölgə ilə bağlı separatçılıq niyyətlərini gerçəkləşdirmək naminə dürtüldüyünü bildirməmiş olmayacaqlar. Eləcə də Rubenin Rusiyanın maraq və mənafelərinin birbaşa icraçısı olduğunu da vurğulayacaqlar. Yəni, bunun baş verəcəyinə şübhəmiz yoxdur. Ona da şübhə etmirik ki, haqqında söz açdığımız məqalə müəllifinin erməni olması faktı da Birləşmiş Ştatlar Administrasiyasının nəzərindən yayınmayacaq.

Diqqət çəkmək istədiyimiz bir məqam da var. Belə görünür, "Vaşinqton post" Trampdan ağır sözlər eşitmək üçün darıxıb. Nə bilmək olar, bəlkə nəşr dövlət başçısının söyüşə bənzər fikirlərini təkrarlaması ilə reklam olunmağı və son dövrlər azalmağa doğru gedən tirajını artırmaq niyyətindədir. Qəzetin qaldırdığı məsələ həm də ona görə gülüncdür ki, belə üsullarla Azərbaycana təzyiq etmək, R.Vardanyanın azadlığa çıxmasına nail olmaq mümkünsüzdür. Tramp da Birləşmiş Ştatların erməni sevdasına köklənmiş sabiq prezidenti Cozef Bayden deyil. Fikrimizin təsdiqi üçün nəinki I Aram və "Vaşinqton post" rəhbərliyi, eləcə də digər xəstə təfəkkür sahibləri 44 günlük müharibə dönəmini yada sala bilərlər. Haşiyə çıxaq ki, müharibə vaxtı Trampa Azərbaycanın Ermənistana qarşı hücuma keçdiyi fikri çatdırılmışdı. Prezidentin cavabı isə təxminən belə idi: Necə olur ki, müsəlman Azərbaycanına dəstəyi İsrail, xristian Ermənistanına dəstəyi isə müsəlman İranı göstərir?

Sonda xatırladaq ki, ABŞ-da D.Trampın Prezident postunda fəaliyyətə başlaması ilə bir çox yeniliklər baş verir. "Amerikanın səsi" və "Azadlıq" radiostansiyalarına açıq hücumlar gerçəkləşdirilir və bu media orqanlarının heç bir əhəmiyyət daşımadığına, ekstremizmi və terrorçuluğu təbliğ etdiyinə dair fikirlər qabardılır. Hesab edirik ki, "Vaşinqton post"a da eyni prizmadan yanaşmaq üçün ciddi əsasların olmasını nəşrin saxta xristian-erməni təəssübkeşliyinə hesablanmış R.Vardanyan sevgisi sübuta yetirə bilər. Əlbəttə, başqa məqamlar da istisna deyil. Çünki bu qəzetin oyunbazlığı heç vaxt sərhəd tanımır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

*Azərbaycan Respublikası Prezidentinin*
*2025-ci il 11 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı

# TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar (qurumlar) |
|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının Dövlət Suverenliyi Gününün və Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illiyinin geniş qeyd olunması, bununla əlaqədar yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi | 20 sentyabr, 12 noyabr | Aidiyyəti dövlət orqanları (qurumları)<br>Tövsiyə olunur:<br>Milli Məclis,<br>Konstitusiya Məhkəməsi,<br>Ali Məhkəmə,<br>Baş Prokurorluq,<br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman) |
| 2. | "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda silsilə tədbirlərin keçirilməsi | İl ərzində | Aidiyyəti dövlət orqanları (qurumları)<br>Tövsiyə olunur:<br>Milli Məclis,<br>Konstitusiya Məhkəməsi,<br>Ali Məhkəmə,<br>Baş Prokurorluq,<br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman) |
| 3. | Milli Məclisin "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş xüsusi iclasının keçirilməsi | İl ərzində | Milli Məclis (tövsiyə olunur) |
| 4. | "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş forumların, konfransların, simpoziumların, dəyirmi masaların, seminarların, müsabiqələrin, müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, vətənpərvərlik mahnılarının (marşların) yazılması, beynəlxalq turizm sərgilərində Azərbaycan milli stendində "Konstitusiya və Suverenlik İli" haqqında məlumatların təqdim edilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Mədəniyyət Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi,<br>Gənclər və İdman Nazirliyi,<br>Müdafiə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Diaspora İş üzrə Dövlət Komitəsi,<br>Dövlət Sərhəd Xidməti,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Dövlət Turizm Agentliyi,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>Medianın İnkişafı Agentliyi,<br>Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi,<br>yerli icra hakimiyyəti orqanları,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri,<br>Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi |
| 5. | Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri tərəfindən "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbirlərin keçirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Xarici İşlər Nazirliyi |
| 6. | Azərbaycan diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan Evləri və həftəsonu məktəbləri tərəfindən "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbirlərin keçirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Diaspora İş üzrə Dövlət Komitəsi |
| 7. | Azərbaycan Respublikasının şəhər və rayonlarında "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>yerli icra hakimiyyəti orqanları<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri |
| 8. | "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi" yubiley medalının təsis edilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Milli Məclis (tövsiyə olunur) |
| 9. | "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş poçt markalarının buraxılması | Sentyabr ayı ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 10. | Yerli və xarici mütəxəssislərin iştirakı ilə Azərbaycan Respublikasının dövlət suverenliyinin təmin olunmasına həsr edilmiş elmi-praktik konfransların təşkili, elmi tədqiqat işlərinin aparılması, əsərlərin, hüquqi şərhlərin, monoqrafiyaların, məqalələrin nəşri, kitabların buraxılması | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Elm və Təhsil Nazirliyi,<br>Mədəniyyət Nazirliyi,<br>Ədliyyə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Dövlət Miqrasiya Xidməti,<br>Azərbaycan Milli Elmlər Akademiyası,<br>Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi,<br>Sosial Tədqiqatlar Mərkəzi,<br>Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi<br>Tövsiyə olunur:<br>Konstitusiya Məhkəməsi,<br>Ali Məhkəmə |
| 11. | İdman yarışlarının və beynəlxalq turnirlərin, "Zəfər yürüşü" tədbirlərinin təşkili | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Gənclər və İdman Nazirliyi,<br>Müdafiə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Fövqəladə Hallar Nazirliyi,<br>Dövlət Sərhəd Xidməti,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri |
| 12. | "Konstitusiya və Suverenlik İli" ilə bağlı ölkə ərazisində müvafiq poster və bannerlərin yerləşdirilməsi, rəqəmli bilbordlarda və monitorlarda videoçarxların nümayiş etdirilməsi | 20 sentyabr, 12 noyabr | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi,<br>Dövlət Reklam Agentliyi,<br>Heydər Əliyev Mərkəzi,<br>"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi,<br>Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi,<br>Dənizkənarı Bulvar İdarəsi,<br>"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti,<br>"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti,<br>yerli icra hakimiyyəti orqanları,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri,<br>Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi |
| 13. | Mediada sənədli filmlərin, verilişlərin, videoçarxların və digər materialların verilməsi, rəsmi qəzetlərin xüsusi buraxılışının hazırlanması, jurnalistlərin və blogerlərin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Ədliyyə Nazirliyi,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Heydər Əliyev Mərkəzi,<br>Medianın İnkişafı Agentliyi,<br>Audiovizual Şura,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi,<br>Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC),<br>"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti,<br>"Azərbaycan" qəzeti,<br>"Xalq qəzeti",<br>"Respublika" qəzeti,<br>"Bakinski Raboçi" qəzeti,<br>Baş Prokurorluq (tövsiyə olunur) |
| 14. | "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Azərbaycan Respublikasında adsız zirvələrə, Bakı şəhərində və digər böyük şəhərlərdə prospekt, küçə, meydan və müvafiq ərazi vahidlərinə, metro stansiyalarına yeni adların verilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Nazirlər Kabineti,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>Geodeziya və Kartoqrafiya Agentliyi,<br>yerli icra hakimiyyəti orqanları,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri,<br>Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi,<br>Milli Məclis (tövsiyə olunur) |
| 15. | Xeyriyyə aksiyalarının keçirilməsi, Azərbaycan Respublikasının dövlət suverenliyinin və ərazi bütövlüyünün bərpası uğrunda şəhid olmuş şəxslərin ailələrinin və müharibə veteranlarının sosial məsələlərinin həlli istiqamətində tədbirlərin davam etdirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Müdafiə Nazirliyi,<br>Daxili İşlər Nazirliyi,<br>Dövlət Sərhəd Xidməti,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Səhiyyə Nazirliyi,<br>Maliyyə Nazirliyi,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>yerli icra hakimiyyəti orqanları,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri |
| 16. | Yeniyetmələr və gənclər üçün olimpiadaların, müsabiqələrin, marafonların, debatların və təlimlərin keçirilməsi, "Zəfərin izi ilə" layihəsi çərçivəsində məktəblilərin, tələbələrin və könüllülərin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili, təhsil müəssisələrində ilk dərs gününün "Konstitusiya və Suverenlik İli"nə həsr edilməsi, xüsusi dərslərin və mühazirələrin təşkili | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Elm və Təhsil Nazirliyi,<br>Gənclər və İdman Nazirliyi,<br>Mədəniyyət Nazirliyi,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>Dövlət Miqrasiya Xidməti,<br>Gənclər Fondu,<br>Medianın İnkişafı Agentliyi,<br>Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi,<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri,<br>Konstitusiya Məhkəməsi (tövsiyə olunur) |
| 17. | "Konstitusiya və Suverenlik İli" ilə bağlı qrant müsabiqələrinin keçirilməsi | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Gənclər Fondu,<br>Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi |
| 18. | "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş hərbi təlimlərin keçirilməsi | İl ərzində | Müdafiə Nazirliyi |

# Oxşar simalar, eyni "nağıl"lar

(əvvəli 1-ci səhifədə)



Ermənipərəst konqresmenlər məktubunda Azərbaycana qarşı "Maqnitski aktı" çərçivəsində sanksiyaların tətbiqini, o cümlədən "Azərbaycan və Türkiyə tərəfindən blokadaya alınmış Ermənistanın ərazi bütövlüyünün qorunmasını" istəyiblər. Məktubda "Bakıda haqsız yerə saxlanılan bütün erməni məhbusların azad edilməsinin, eləcə də Dağlıq Qarabağda erməni mədəni irsinin qorunmasının zəruriliyi" də vurğulanır.

Bundan əlavə, konqresmenlər Tramp Administrasiyasını "Ermənistana sərhədlərini Azərbaycanın davam edən təcavüzündən qorumağa imkan verəcək hava hücumundan müdafiə sistemləri və pilotsuz uçuş aparatları ilə təchiz etməklə Ermənistanın təhlükəsizliyini dəstəkləməyə" çağırıblar. Həmçinin qeyd olunur ki, 15 yanvar 2025-ci il tarixli ABŞ–Ermənistan Strateji Tərəfdaşlıq Xartiyası ikitərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində mühüm addımdır. Konqresmenlər Rubionu Ermənistana iqtisadi dəstəyi genişləndirməyə və sülhməramlı nüvə enerjisi sahəsində əməkdaşlıq sazişi üzrə danışıqları sürətləndirməyə çağırıblar. Vurğulanır ki, bu sahədə investisiyalar Ermənistana enerji hasilatını şaxələndirməyə və Rusiyanın enerji və ticarətindən asılılıqdan çıxmaq məqsədinə nail olmağa imkan verəcək.

Məktubda deyilir ki, Ermənistan və Azərbaycan arasında davamlı və ləyaqətli sülh ciddi cavabdehlik tələb edir və "ermənilərin Dağlıq Qarabağdakı ata-baba yurdlarına kollektiv və təhlükəsiz şəkildə qayıtmasına" əsaslanmalıdır.

Konqresmenlərin ermənipərəst möqeyi məktubda açıq-aydın hiss olunur. Məqsəd 30 ildən çox işğalçılıq siyasəti yürüdən, günahsız insanları qətlə yetirən, hələ də bu kimi ambisiyalarından əl çəkməyən, özlərini məzlum simasında göstərən erməniləri müdafiə etməkdir. Bəs, ABŞ Konqresinin erməni məsələləri üzrə qrupunun rəhbərləri kimlərdir? Onların məqsədləri nədir?

Biz ABŞ Konqresində dəfələrlə Qarabağ ermənilərinin hüquqları, bölgənin erməni mədəni irsinə qarşı təhdidlər, Ermənistana siyasi və iqtisadi yardım göstərilməsi və sair məsələlərin müzakirəsinin aparıldığının şahidi olmuşuq. Ermənipərəst mövqe tutan konqresmen və senatorlar ABŞ-ın sabiq prezidenti C.Baydenin dönəmində, xüsusilə, fəallaşmışdılar. Həmin dövrdə Azərbaycan əleyhinə qəbul olunan qərar və bəyanatlar da ermənipərəst siyasətçilərin "zəhmətinin" məhsuludur. Görünür, onlar ABŞ-da yeni hökumətin seçilməsindən sonra da ağalarının istəklərini həyata keçirilməsinə çalışırlar.

Koqresmenlər David Valadao və Frank Pallonenin adları bizə tanışdır. Onlar bir neçə il bundan əvvəl erməni işğalı altında olan ərazilərə qanunsuz səfərlər etdiklərinə görə adları Azərbaycan XİN tərəfindən "qara siyahı" ya salındı. Bred Şerman da qatı ermənipərəst mövqeyi ilə seçilən konqresmendir. O, ikinci Qarabağ müharibəsi zamanı əsir götürülmüş ermənilərin azad olunması və Azərbaycana təzyiq göstərilməsi üçün sabiq Dövlət katibi Antoni Blinkenə müraciət etmişdi. Həmçinin ABŞ-ın Ermənistanı silahlarla təmin etməsi məsələsini irəli sürmüşdü. Digər konqresmen, hakim Respublikaçılar Partiyasının təmsilçisi Qas Bilirakis yeni olsa da, bu sıraya qoşulmağın ona da dividend gətirəcəyinə ümid edir. Q.Bilirakis Türkiyəni qondarma "erməni soyqırımı"nı inkar etdiyinə, Azərbaycanı isə Qarabağda "etnik təmizləməyə" görə öz aləmində günahlandırır.

Ümumiyyətlə, adlarını çəkdiyimiz bu şəxslər ABŞ-dakı erməni lobbi dairələri, xüsusilə radikal, irqçi təşkilat olan Amerika Erməniləri Milli Komitəsinin maliyyə təsiri altında olduqlarını dəfələrlə öz əməlləri ilə sübut ediblər.

Bununla belə konqresmenlərin müraciətində diqqətçəkən məqam Dövlət katibinə məktub göndərənlərin sayının Bayden administrasiyası dövrü ilə müqayisədə azalmasıdır. Məsələ ondadır ki, dövlət katibinə bənzər müraciət keçən ilin oktyabrında da qeydə alınıb. O zaman Antoni Blinkenə 60-a yaxın konqresmen məktubla müraciət edərək, Bakıya sanksiya tətbiqini istəmişdi. Bunun ardınca çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev konqresmenlərin məktubunun Dövlət Departamentində yazıldığını bildirərək, atılan addımı sərt tənqid etmişdi.

Prezident İlham Əliyev 2024-cü il oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında bildirmişdi: "Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür. Yəni necə ola bilər ki, bizim icazəmiz olmadan Azərbaycan öz hüququnu bərpa etdi? Heç kimdən soruşmadan, heç kimdən qorxmadan, heç kimi saymadan. Öz gücü hesabına, öz övladlarının fədakarlığı hesabına. Bunu bizə bağışlaya bilmirlər və bu gün Azərbaycana Amerikadan sanksiya tətbiq edilir. Ondan sonra da deyirlər ki, gəlin, dostluğumuzu möhkəmləndirək. Hansı dostluqdan söhbət gedə bilər?".

Dövlətimizin başçısının qeyd etdiyi kimi, dostu və düşməni vaxtında və yaxından tanımaq lazımdır.

***Azər MUSTAFAYEV***

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# “Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi” informasiya sistemi haqqında

# ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə “Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi” informasiya sisteminin (bundan sonra – Sistem) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Sistem rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, Sistemdə saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. Sistemin formalaşdırılmasının məqsədi qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti sahəsində dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə analitik təhlillər aparılmasından, proqnozların və hesabatların hazırlanmasından və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

1.4. Sistemdə yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Sistemin sahibi və operatoru Agentlikdir.

1.6. Bu Əsasnamədə istifadə olunan anlayışlar “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nda (bundan sonra – Qaydalar), həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

1.7. Fərdi məlumatların Sistemdə toplanılması və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanların təmin edilməsidir. Fərdi məlumatların Sistemdə toplanılması, işlənilməsi və mühafizəsi “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.8. Sistemin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.9. Bu Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.10. Sistem Qaydaların 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

**2. Sistemin texniki-texnoloji infrastrukturu**

2.1. Sistemin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri;

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında “Mobil Prioritetli Tərtibat” prinsipi ilə qurularaq, Sistemin funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə Sistemdən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. Sistem onun fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Sistemin qurulma topologiyasına uyğun olaraq telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. Sistemin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları sahibin müvafiq struktur bölməsi tərəfindən;

2.4.2. Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. Sistemdə formalaşdırılan, ona daxil edilən və ötürülən məlumatlar Sistemin informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli Sistemin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Sistem, o cümlədən Sistemdə toplanılan məlumatların ehtiyat nüsxələri “Hökumət buludu”nda saxlanılır.

2.8. Sistemdə aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

**3. Sistemin altsistemləri**

3.1. Sistemin strukturuna aşağıdakı altsistemlər daxildir:

3.1.1. insan və heyvanların həyat və sağlamlığının qorunmasını təmin etmək məqsədilə riskin qiymətləndirilməsi, idarə edilməsi, risk haqqında məlumatlandırmanı təmin edən “Risklərin təhlili” altsistemi;

3.1.2. qida və yem məhsullarının təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktları və ya onların layihələrini, qida təhlükəsizliyi ilə bağlı nəzarət prosedurlarını, qeydiyyat, təsdiq və sertifikatlaşma qaydalarını, qida məhsulunun insan sağlamlığı üçün yaratdığı riskin təhlili prosedurlarını və metodlarını, sanitar mühafizənin zəruri səviyyəsini müəyyən edərkən nəzərə alınan amillər barədə məlumat verilməsini, habelə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların ictimai müzakirəsini təmin edən “Məlumat və bildiriş” altsistemi;

3.1.3. qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılmasını təmin edən “Qida məhsullarının təhlükəli halları” altsistemi;

3.1.4. Azərbaycan Respublikasının ərazisindən xarici ölkələrə ixrac edilən qida və yem məhsullarına sağlamlıq sertifikatının, Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunan qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara gömrük ərazisinə gətirilməzdən əvvəl elektron bildirişin göndərilməsi, onlara idxal sağlamlıq aktının, bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının, idxal karantin icazəsinin, ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala beynəlxalq baytarlıq sertifikatının verilməsini, gömrük ərazisinə idxal edilmiş, o cümlədən Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan yüklər (mallar, məhsullar) üzərində baytarlıq, fitosanitar və qida təhlükəsizliyi nəzarəti ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin edən “İdxal-ixrac əməliyyatları” altsistemi;

3.1.5. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə uyğun olaraq, qida obyektlərinin və qida subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalı sahəsində fəaliyyət göstərən obyektlərin qeydiyyatını və ya təsdiqini, “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun 25.1.1–25.1.6-cı maddələrində nəzərdə tutulmuş məhsulların qeydiyyatını, pestisidlərin, bioloji preparatların, aqrokimyəvi maddələrin və baytarlıq preparatlarının qeydiyyatını, həmçinin Qida Təhlükəsizliyi Reyestrinin aparılması ilə bağlı proseslərin həyata keçirilməsini təmin edən “Qeydiyyat və təsdiq” altsistemi;

3.1.6. qida zənciri subyektlərindən məhsulların izlənilməsi ilə bağlı sənədləri, habelə malik olduğu izləmə sistemi və prosedurları haqqında məlumatların əldə olunmasını təmin edən “Məhsulların izlənilməsi” altsistemi;

3.1.7. qida təhlükəsizliyi, baytarlıq və fitosanitar qanunvericiliyin tələblərinə riayət olunması sahəsində dövlət nəzarəti tədbirlərinin həyata keçirilməsi ilə bağlı proseslərin idarə olunmasını təmin edən “Dövlət nəzarəti” altsistemi;

3.1.8. qida mənşəli xəstəliklər üzrə təhlillər aparılmasını və bununla bağlı məlumat bazasının formalaşdırılmasını təmin edən “Qida mənşəli xəstəliklərin müşahidəsi” altsistemi;

3.1.9. qida və yem məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi ilə bağlı proseslərin aparılmasını təmin edən “İstehlakçıların müraciətlərinin baxılması və izlənilməsi” altsistemi;

3.1.10. heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası ilə bağlı baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarəti və bu məqsədlə hər bir heyvan və ya heyvanlar qrupunun müşahidə edilməsini təmin edən “Heyvanların identikləşdirilməsi (kodlaşdırılması)” altsistemi;

3.1.11. ölkə daxilində heyvanların, heyvan mənşəli məhsulların və xammalın daşınması və satışı məqsədilə onların baytarlıq normalarına cavab verməsini təsdiq edən sənədlərin verilməsi ilə bağlı tədbirlər görülməsini, baytarlıq sahəsində uçot və hesabat aparılmasını, həmçinin heyvanların karantin xəstəliklərinin statistik uçotunu, habelə fərdi baytarlıq xidməti praktikası ilə məşğul olmaq istəyən fiziki şəxslərin uçotunu təmin edən “Heyvan sağlamlığı” altsistemi;

3.1.12. ölkədə fitosanitar vəziyyətin araşdırılması və bitki mühafizəsi sahəsində nəzarət tədbirlərinin, habelə ölkə daxilində daşımalar zamanı bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının verilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin edən “Bitki sağlamlığı” altsistemi;

3.1.13. qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti sahələrində laboratoriya tədqiqi (sınağı), ekspertiza və tədqiqat (ölçmə) xidmətləri, habelə laboratoriyalararası müqayisəli və səriştəlilik sınaqlarının təşkili və sınaq metodlarının tətbiqi ilə bağlı proseslərin idarə olunmasını təmin edən “Laboratoriyaların idarəedilməsi” altsistemi;

3.1.14. Sistemə daxil edilmiş və ötürülmüş məlumatların təhlili üçün həmin məlumatların tutuşdurulmasını, tutuşdurulma zamanı aşkarlanan uyğunsuzluqların hesabatlarda öz əksini tapmasını, müxtəlif parametrlərə görə hesabatların alınmasını təmin edən “Təhlil və hesabat” altsistemi.

**4. Sistemə daxil edilən və ötürülən məlumatlar**

4.1. Məlumat mübadiləsinin operativliyini və səmərəliliyini artırmaq məqsədilə Sistem qanunvericiliyin tələbləri nəzərə alınmaqla, digər dövlət informasiya sistemləri ilə əlaqəli fəaliyyət göstərir.

4.2. Sahib normativ hüquqi aktlarla müəyyən edilən hüquqlarının həyata keçirilməsi, dövlət xidmətləri göstərilməsi, vəzifələrinin icrası zamanı tələb olunan aşağıdakı məlumatları inteqrasiya yolu ilə ilkin mənbələrdən əldə edir:

4.2.1. qida zənciri subyektləri olan və ya Agentliyin nəzarəti dairəsində baytarlıq və fitosanitar sahələrdə fəaliyyət göstərən fiziki şəxslər barədə məlumatlar (soyadı, adı, atasının adı və FİN-i);

4.2.2. “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə uyğun olaraq qeydiyyat və ya təsdiq üçün müraciət edən cavabdeh subyektin təsərrüfat fəaliyyətini həyata keçirdiyi qida obyekti üzərində “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əsaslandırılmış sorğusu ilə həmin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış hüquqlar və həmin hüquqların məhdudlaşdırılması (yüklülüyü) barədə məlumatlar;

4.2.3. qida zənciri subyektləri olan və ya Agentliyin nəzarəti dairəsində baytarlıq və fitosanitar sahələrdə fəaliyyət göstərən hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslərin vergi ödəyicisi kimi uçotda olub-olmaması, fəaliyyət növlərinin adı və kodu (əsas və əlavə), vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) yerləşdiyi ünvanlar, hüquqi şəxsin hüquqi ünvanı, adı və rəhbəri barədə (soyadı, adı, atasının adı və vəzifəsi), qanuni təmsilçinin (təmsilçilərin) soyadı, adı, atasının adı və FİN-i barədə məlumatlar;

4.2.4. qida zənciri subyekti olan hüquqi şəxsin və ya fərdi sahibkarın qida məhsulları ilə bilavasitə təmasda olan işçiləri barədə məlumatlar (işçilərin sayı, soyadı, adı, atasının adı və vəzifəsi);

4.2.5. qida zənciri subyekti olan hüquqi şəxsin və ya fərdi sahibkarın qida məhsulları ilə bilavasitə təmasda olan əməkdaşlarının ilkin və dövri tibbi müayinədən keçməsi barədə məlumatlar;

4.2.6. qida zənciri subyekti olan sahibkarın “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada mikro, kiçik, orta və iri sahibkar meyarları üzrə aid edildiyi kateqoriya barədə məlumatlar;

4.2.7. bu Əsasnamənin 3.1.4-cü yarımbəndində nəzərdə tutulan malların və məhsulların gömrük sərhəd buraxılış məntəqələrindən keçirilməsi və onların gömrük rəsmiləşdirilməsi ilə bağlı məlumatlar;

4.2.8. bioloji aktiv qida məhsullarının dərman vasitələri ilə eyni tərkibli və eyni dozalı olub-olmamasını müəyyən etmək məqsədilə aparılan ekspertiza rəyi barədə məlumatlar;

4.2.9. qida mənşəli xəstəliklər barədə məlumatlar;

4.2.10. baytarlıq xidmətləri barədə məlumatlar;

4.2.11. fitosanitar xidmətləri barədə məlumatlar.

4.3. Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.4. Sistemlə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) Sistemə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə, onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.5. Sistemdə formalaşdırılan sənədlər “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib edilir və rəsmiləşdirilir.

**5. Sistemdən istifadə qaydası**

5.1. Sahibin digər dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra – EHİS) inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər büdcə təşkilatlarının, həmçinin yerli özünüidarəetmə orqanlarının və digər hüquqi şəxslərin (bundan sonra – qurumlar) Sistemdən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda həmin qurumların rəhbər şəxsi tərəfindən Sistemdə qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxsləri Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadə edirlər.

5.3. Fiziki şəxslər Vahid Giriş Sistemi vasitəsilə Sistemdə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq Sistemdən istifadə edirlər.

5.4. Sistem vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə həmin informasiya sistemlərinin rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə, ödənişlərin edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.5. Sistem vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) istifadəçilərin Sistemin fəaliyyətində iştirakını və onlardan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər, istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

**6. Sahibin vəzifələri və hüquqları**

6.1. Sistemin fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. Sistemin idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. Sistemin dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların toplanıldığı, işlənildiyi və mühafizə edildiyi (“Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) hallarda isə fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin, həmçinin fərdi məlumatların dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. Sistemin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra – Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə Sistemə çıxış, habelə onun texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;

6.1.5. Sistemin informasiya təhlükəsizliyini XRİTDX və operator ilə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliklə birlikdə təmin etmək;

6.1.6. Sistemin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal XRİTDX-yə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə, həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. Sistemə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.8. Sistemə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.9. Sistemin, o cümlədən onun ehtiyat nüsxələrinin “Hökumət buludu”nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operatorla birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin “bir pəncərə” prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barədə məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti qurumların Sistemin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirliklə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Sistemə daxil etmək;

6.1.16. Sistemdən sərbəst və maneəsiz istifadənin, habelə onların dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. Sistemdə dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.19. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. Sistemin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. Sistemin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. Sistemdən istifadə və onların funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. Sistemin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğular vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7. Operatorun vəzifələri və hüquqları**

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. Sistemin informasiya təhlükəsizliyini XRİTDX və sahiblə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliklə birlikdə təmin etmək;

7.1.2. Sistemin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal XRİTDX-yə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə, həmçinin Nazirliyə təqdim etmək, habelə XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. Sistemə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. Sistemin, o cümlədən onun ehtiyat nüsxələrinin “Hökumət buludu”nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. Sistemin təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə həmin informasiya ehtiyatlarının və sistemlərinin “Hökumət buludu”nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. Sistemin fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində, sahiblə razılaşdırmaqla, texniki tədbirlər görmək və bu barədə Sistemin fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. Sistemdən sərbəst və maneəsiz istifadəni, Sistemin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə Sistemin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Sistemə daxil etmək;

7.1.9. Sistemi EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. Sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

7.1.12. Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında Sistemdə dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı rəsmi sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.16. aidiyyəti qurumların dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.17. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. Sistemin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. Sistemin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. Sistem ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişiklik aparılması məqsədilə məsələ qaldırmaq;

7.2.4. Sistemin parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər Sistemin təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, Sistemə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**8. İştirakçıların vəzifələri və hüquqları**

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. Sistemə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə Sistemə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. Sistemdən, habelə Sistemdə olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. Sistemdə saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun Sistemə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. Sistemin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. Sistemin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. Sistemin təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**9. İstifadəçilərin hüquqları**

9.1. İstifadəçilərin Sistemdən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. Sistemdəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahib və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. Sistemin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. Sistemdən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

# USAID: Demokratiya və hüququn əks tərəfində




V MƏQALƏ

## Dünyanın "immun" boşluqları

Azərbaycanın da cəlb edildiyi informasiya müharibəsinin dinamikasında USAID-in xüsusi yeri və rolunun olduğunu iki səviyyədə faktlarla sübut etmək olar. Birincisi, bütövlükdə dünya miqyasında bu təşkilatın açıq və gizli olaraq informasiya resurslarına, vasitələrinə, məlumatların yayılmasına, onların məzmunlaşdırılmasına və təsir hədəflərinin müəyyənləşdirilməsinə nüfuz etməsi ilə bağlıdır. İkincisi, konkret ölkələr üzrə USAID-in informasiyalarla işləmək tərzidir. Bu iki səviyyənin qarşılıqlı əlaqəsində agentliyin dünya və ayrı-ayrı ölkələrdəki əsl simasını aydınlaşdırmaq olur.

Faktlar göstərir ki, bu sima Azərbaycanda cəmiyyət tərəfindən heç də xoş qarşılanmır. Hərçənd USAID-in fəaliyyətinin dayandırılmasına ABŞ-ın bir sıra KİV orqanlarının verdiyi reaksiyalar və bu quruma haqq qazandırmaq üçün gətirdikləri "arqumentlər" düşündürür.

ABŞ-da bu təşkilatı müdafiə edən KİV orqanları, adətən, ümumi şəkildə belə bir ifadə işlədirlər: USAID dünyanın immun sistemini möhkəmləndirməkdə fəal rol oynayır.

Burada "immun sistemi" ikimənalı işlədilir. Birincisi, kasıb ölkələrdə müxtəlif infeksion xəstəliklərə qarşı mübarizədə USAID-in göstərdiyi yardımlar (məsələn. sifilis, QİÇS, vərəm, COVID19 və s.). İkincisi, informasiya sahəsində USAID-in yerli mediaya etdiyi kömək sayəsində cəmiyyətdə informasiya təminatına göstərilən yardımlar.

Hər iki aspekt reallıqda mövcuddur. Lakin əsas məsələ bu humanitar addımların arxasında dayanan məqsəd və planlardan bəhs etməyə həmin KİV orqanları elə də həvəsli deyillər. Buna baxmayaraq, ümumi halda həqqəti tam inkar edə də bilmirlər. Məsələn, BBC və ya "Amerikanın səsi" USAID-in yardımlarında iki məqsədi ümumi kontekstdə vurğulayırlar: Biri insanların həyatlarının müxtəlif sahələrinə yardım göstərmək, digəri yardım olunan ölkədə ABŞ maraqlarını təmin etmək.

## Rubionun üç sualı

ABŞ-ın Dövlət katibi M.Rubionun USAID-i bağlamaqla bağlı gətirdiyi arqumentlər də həmin prizmada maraqlıdır. M. Rubio deyir ki, xərclədiyimiz hər bir dollar, reallaşdırdığımız hər bir proqram və həyata keçirdiyimiz bütün siyasət üç sadə suala cavabda bəraət ala bilər: "Bu, Amerikanı daha təhlükəsiz edirmi?", "Bu, Amerikanı daha güclü edirmi?", "Bu, Amerikanı daha çiçəklənən edirmi?".

Bu suallar USAID-in fəaliyyətinin dayandırılmasının əsl mahiyyətini və məqsədini tam aydınlaşdırır. Belə ki, USAID ABŞ-ın güclənməsi, təhlükəsizliyinin daha da inkişaf etməsi və çiçəklənməsinə gözlənilən xidməti edə bilmədiyinə görə bağlanır. Bu anlayışlardan kənarda onun saxlanmasının anlamı yoxdur. Yəni USAID nə Trampın, nə də Maskın alutrist duyğuları və ya dünyanın dərdini çəkmək mərəzləri ilə əlaqəli deyildir. Qısaca: Bu təşkilat korrupsiyaya, rüşvətə və mənasız pul xərcləmələrinə uyaraq Amerikaya xidmət yolundan sapmış, onun maraqlarının təmin edilməsində gözlənilən effekti vermәmişdir.

Bu gerçək tezisdən yuxarıda KİV-də vurğulanan "dünyanın immun sistemi" gəlişi – gözəl ifadəsinin ikinci mənasına keçək.

## ABŞ-ın informasiya təsiri marağı

Beləliklə, Amerika KİV-i özü yazır ki, USAID dünya üzrə ABŞ-ın maraqlarını müdafiə etməlidir. Bu kontekstdə ayrı-ayrı ölkələrdə "müstəqil media" adı altında yaradılan informasiya şəbəkəsi də məhz əsas olaraq Amerikanın maraqlarına xidmət etməlidir. Əks-halda USAID ona niyə pul xərcləməlidir? Onda sual yaranır: Həmin media şəbəkəsinin harası müstəqil və ümumbəşəri dəyərlərə xidmət nümunəsi ola bilər? Axı, ABŞ dünya deyil, onun sadəcə, qüdrətli bir dövlətidir! Ən qüdrətli dövlət belə dünyaya ağalığa bu cür iddia etmək haqqına sahib deyildir. Çünki bu dünyada hər bir dövlətin öz haqqı, həqiqəti, hüququ vardır və Vestfal sazişi əsasında BM kimi təşkilatlar bunu təmin etməyə müvəkkildirlər! USAID isə gizli olaraq bütün bunların üstündən xətt çəkir, əlavə olaraq dünyanın bir ölkəsinin dəyərlərini ümumbəşəri kimi sırımağa çalışır. Amerika KİV-i buna da ad qoymuşdur: "yumşaq güc"ün dövlətin nüfuzu yolunda təbiqi!

Sonra da təəssüf edirlər ki, D.Tramp Administrasiyası "yumşaq güc" tətbiqi indeksində ABŞ dünyada birinci yeri tutan zamanı USAID-ə hücum etmişdir. İkinci yerdə Böyük Britaniya və üçüncü yerdə Çindir. Buradan nəticə çıxarırlar: USAID-in bağlanması ilə yaranmış boşluğu Çin tuta bilər! D.Tramp bunu niyə nəzərə almır?

Bu da amerikasayağı yardım, humanitarlıq və "dünyanın immun sistemi"ni möhkəmlətmək istiqamətində fəaliyyət! Qətiyyən aidiyyatı yoxdur – əsas dərdləri ABŞ-ın maraqlarıdır!

Onda Azərbaycan məsələsinə informasiya müharibəsi kontekstində daha geniş prizmada baxa bilərik.

## Azərbaycan "zəif demokratiyası" planı

Uzun illərdir ki, Azərbaycanın informasiya məkanında özünü göstərən proseslərin ümumi dinamikası və yekun mənzərəsinə baxanda "zəif Azərbaycan demokratiyası"-nın nə demək olduğunu anlaya bilərik. Bunun riskli və təhlükəli əlamətləri haqqında konkret təsəvvür əldə etmək olur. Belə bir vəziyyətin yaranmasında "müstəqil media" adı altında yaradılmış müxtəlif KİV orqanlarının fəaliyyətindəki əsas məqsədi (adətən, üstüörtülü ifadə edirlər) aydınlaşdıra bilərik. Vurğulanan aspektdə onların fəaliyyəti, bir qayda olaraq, sistemli və müxtəlif istiqamətləri özündə birləşdirən informasiyaların yayılması ilə bağlı olur. Həm də burada məlumatlandırma, təbliğat və təşviqat bir-biri ilə sıx əlaqədə təqdim edilir.

Zahirən bu əlaqə hiss edilmir, insanlara elə gəlir ki, məqsəd yalnız həqiqəti cəmiyyətə çatdırmaq, onları "oyatmaq", "əsl gerçəkliyi görmələri"nə yardım etməkdir. Situasiyanın aldadıcı və şirnikdirici tərəfi də məhz bununla bağlıdır.

Məsələ belədir ki, informasiyaların bu cür verilməsi texnologiyasını Qərbin müxtəlif təşkilatlarının gizli dəhlizlərində illərlə müzakirə etmiş, konkret məzmuna salmışlar və onları sistemləşdirərək xüsusi fəaliyyət proqramı formasında praktikada tətbiq etməyə başlamışlar. Ona görə də informasiya ilə həmin kontekstdə işləmək olduqca hiyləgər "örtüklərlə" pərdələnir. Faktiki olaraq adi insan onları görə bilmir. Ona elə gəlir ki, "müstəqil media" düzünü deyir, rəsmi KİV isə yaltaqlıq edir, baş aldadır.

Bəs, nə etməli? Etiraza və üsyana qalxmalı, yoxsa "bütövlükdə cəmiyyət və millət məhv olacaq"! Bu aldadıcı qənaətdən "rəngli inqilaba" cəmi bir addım qalır, hətta kiçik qığılcım bəs edir ki, çox sayda insan ayağa qalxsın. Ərəb ölkələri, Ukrayna, Gürcüstan, Moldova buna əyani misaldır.

Konkret olaraq Azərbaycanda həmin istiqamətdə informasiya təsirləri bir neçə səviyyədə və istiqamətdə illərdir ki, aparılır (təəssüf ki, indi də onun müxtəlif formaları qalmaqdadır).

Hər şeydən öncə, "müstəqil media" ölkə rəhbərliyini gözdən salmağa xidmət edən uydurma informasiyaları xüsusi "arqument" və "pafosla" yaymağa çalışır. Bu zaman azərbaycanlı mentalitetinin qırmızı xətlərini heyasızcasına keçməkdən çəkinmirlər. Məsələn, bilinir ki, ailə dəyərləri azərbaycanlı üçün tarixən müqəddəs olmuşdur. Buna görə də dövlətə başçılıq edən liderin ailə mentalitetinə qarşı sərhədsiz hücumlar etməyə girişirlər. Əsas məqsəd liderin legitimliyini yox etməkdir. Bununla bağlı kifayət qədər fakt cəmiyyətə məlumdur. Bir qədər geniş kontekstdə dövlətə rəhbərlik edən komandanın ayrı-ayrı üzvlərinə qarşı analoji informasiya hücumları olur. Bu da bütövlükdə iqtidarın gözdən salınması cəhdidir.

Digər istiqamət Azərbaycan xalqının milli, mənəvi, əxlaqi, birgəyaşam fəlsəfəsi, adət-ənənələrini gözdən salmaqla əlaqəlidir. Burada da əsasən ziyalı təbəqəsinin "keyfiyyətsizliyi" təəssüratı yaratmağa çalışırlar. Yerlərdə rəhbər şəxslərin mənəvi-əxlaqi dəyərlərini qondarma "faktlarla" cəmiyyətə sırımağa çalışırlar. Son zamanlar müxtəlif səviyyələrdə rəhbər vəzifə tutan insanların əxlaqını "ifşa" edən video görüntülərin çoxalması, şantaj xarakterli materialların təhdidlə yayılması və s. bunun əlamətləridir. Hətta nazirliklər səviyyəsində azərbaycanlı məmurların əxlaqsız imicini yaratmaq cəhdləri də mövcuddur.

Cəmiyyətə yönəlik digər istiqamət, ümumiyyətlə, azərbaycanlı məmurların mənfi imicini yaratmağa istiqamətlənmiş qondarma informasiyaların yayılması ilə bağlıdır. Bu prosesdə azərbaycanlıların bütövlükdə dövlət tərbiyəsinin olmadığı, onların şəxsi həyatda layiqli olmamaları ilə yanaşı, konkret işini bacara bilmədiyi təsəvvürü yaratmaq cəhdləri aydın görünür. Bir sıra hallarda bunu, guya, Azərbaycanın təəssübünü çəkərək, "əşi filankəslər işləyə bilmirlər, heç nə qanmırlar, bacarmırlar" və s. kimi cümlələrlə ifadə edirlər.

Yekun olaraq, bu cür informasiya təxribatı cəmiyyətin, demək olar ki, bütün sferalarını əhatə edir. Onların sırasında Azərbaycanın müttəfiq olduğu dövlətlərə, strateji tərəfdaşlarına, fəal olduğu təşkilatlara, qonşu ölkələrlə münasibətlərə şər-böhtan atmaq ayrıca yer tutur.

Məsələn, Türkiyə haqqında bir sıra "müstəqil milli KİV" orqanı qərəzli, təhqiredici tonda informasiya verməkdədirlər. Müəyyən hallarda özünü Türk dünyasının informasiya şəbəkəsinə qoşulmuş və milli mövqeli KİV kimi göstərərək ancaq neqativ informasiyalar yaymağa çalışırlar. Nümunə: Qazaxıstandan informasiya verirlər ki, "traktor bu qədər adamı basıb öldürdü", "avtomobil qəzasında filan qədər insan öldü", "Türkiyədə dəhşətli zəlzələ gözlənilir", "Türkiyədə filankəs aktyor evlənib və çox əxlaqsız paltar geyinib", "Türkiyəyə ağır zərbə" (məzmununda isə boş və yalan ifadələr), "Azərbaycanın filan bölgəsində belə bir əxlaqsızlıq olmuşdur" və s. Bir sıra hallarda məzhəbçilik mövzusunda uydurma və qızışdırıcı, birliyin pozulmasına hədəflənmiş "faktlar" təqdim edilər. Bu istiqamətdə əsasən İranı hədəf alırlar.

Bu kimi təxribatların hətta elmdə də əks-sədası özünü göstərir. Məsələn, hər hansı elmi həqiqəti, guya, yeni baxışla və "mənbələrə istinadla" fərqli izah etmək niyyəti altında tariximizi, sosial həyatımızı, təfəkkürümüzü, poetik ənənəmizi ləkələmək məqsədi daşıyan qondarma informasiyaları "azadfikirlilik", "müstəqil yanaşma" kimi sırımaq cəhdləri çoxalmışdır. Dərinlərə gedəndə elmi mənbə kimi fars, yunan, rus və ya Qərb mənbələrinin təhrif olunmuş vaiantından istifadə edildiyi məlum olur. Bir sıra hallarda kimlərinsə kimlərləsə şəxsi münasibətlərini bütövlükdə cəmiyyətə xas olan nöqsan kimi təqdim etmək cəhdi özünü göstərir.

Bu da Türk dünyasından verilən "müstəqil və obyektiv informasiyaların qısa bir qismi! Sizcə, belə informasiyalar Türk dünyası haqqında hansı təsəvvürü formalşdırar? Əlbəttə, cəhənnəm, əxlaqsızlıq, gerilik məkanı obrazını Azərbaycanın aidiyyatlı orqanları bu cür təxribat xarakterli, gizli niyyətli KİV-ləri müəyyən edib, tədbir görməlidirlər.

Lakin "zəif demokratiya" informasiya sferasında bunlarla da məhdudlaşmır.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Hikmət Hacıyev: "Azərbaycanda USAID-in fəaliyyətinə yer yoxdur!"

**"21.11.2023 tarixində paylaşdığım bu postu xatırladım. "Maskaları çıxarın! Azərbaycanda USAID-in fəaliyyətinə yer yoxdur".**



Bunu "X" hesabında Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici Siyasət Məsələləri Şöbəsinin müdiri Hikmət Hacıyev yazıb.

Qeyd edək ki, 2023-cü ilin noyabrında Hikmət Hacıyev yuxarıda qeyd edilən sözləri Samanta Pauerə cavabının sonunda qeyd etmişdi.

# Ermənistan baş nazirinin əsassız iddiaları sülhə nail olmaq perspektivini sarsıdır



**Ermənistan baş nazirinin fevralın 10-da "Armenpress"də dərc olunmuş məqaləsində Azərbaycanın Ermənistana qarşı hücuma hazırlaşdığı və Qərbi Azərbaycan İcmasının məqsədləri ilə bağlı iddiaları, eləcə də bir çox digər əsassız fikirləri reallığı təhrif etmək və dünya ictimaiyyətini yanıltmaq məqsədi daşıyır.**

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistanın baş naziri Nikol Paşinyanın həmin iddiaları ilə bağlı şərhində bildirilir ki, hərbi potensial hüququnu müdafiə edən baş nazir 30 illik işğaldan əlavə, üçtərəfli Bəyanatda üzərinə götürdüyü öhdəliklərə baxmayaraq, 44 günlük müharibə bitdikdən sonra 3 il ərzində Azərbaycan ərazisində ağır silahlarla təchiz edilmiş 10 mindən çox hazırlıqlı silahlı birləşmə saxlamış ölkəni təmsil edir.

XİN sözçüsü qeyd edir ki, 44 günlük müharibə başa çatdıqdan sonra Ermənistanın hərbi xərcləri, təqribən, 3 dəfə artaraq 2021-ci ildəki 600 milyon dollardan 2024-cü ildə 1,6 milyard dollara çatıb. Üstəlik, bu yaxınlarda imzalanmış hərbi müqavilələrə görə, Ermənistan, əsasən, Azərbaycanın ərazilərinə uzaq məsafəli zərbələr endirə biləcək hücum silahları əldə etməkdədir.

Ermənistan Konstitusiyasında və hüquqi aktlarında hələ də qalan ərazi iddiaları, ölkədə revanşizmin artması zəminində Ermənistanın hərbi potensialını gücləndirməsini əsaslandırmaq cəhdi qeyri-səmimidir və Azərbaycanın təhlükəsizliyinə birbaşa təhdiddir. Məqsədləri beynəlxalq hüquqa əsasən, qovulduqları torpaqlara təhlükəsiz, ləyaqətlə qayıdış olan Qərbi Azərbaycan İcmasının fəaliyyəti və məqsədləri haqqında Ermənistanın iddiaları da tamamilə əsassızdır.

Mətbuat katibi daha sonra bildirir: "Baş nazirin cənfəşanlıqla irəli sürdüyü silahlara nəzarət mexanizmlərinin yaradılmasına gəldikdə isə, 30 ildən artıq müddətdə Ermənistanın özünün iştirak etdiyi silahlara nəzarət mexanizmlərini kobud şəkildə pozduğu və deqradasiya etdiyi, hərbi texnika və silahların böyük hissəsini beynəlxalq silahlara nəzarət mexanizmlərindən gizlətdiyi, onları bizim ərazilərimizdə qanunsuz yerləşdirdiyi yaxşı məlumdur. Beynəlxalq müqavilələrə bu cür yanaşma Ermənistanın mövqeyinin qeyri-səmimiliyi barədə nəticə çıxarmağa imkan verir. Biz qətiyyətlə Ermənistanı sülhə nail olmaq perspektivlərini sarsıdan bəyanat və hərəkətlərdən imtina etməyə çağırırıq".

***XQ***

# Hərbçilərimiz "Qış təlimi-2025"i uğurla başa vurublar



**Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) hərbi qulluqçuları Türkiyənin Qars şəhərində keçirilmiş "Qış təlimi-2025"-də ölkəmizi layiqincə təmsil edərək Vətənə qayıdıblar. Bu münasibətlə ƏÜO-da təntənəli mərasim keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, mərasimdə ƏÜO komandanı general-mayor Kənan Seyidov çıxış edərək, birgə hərbi təlimlərin əhəmiyyətindən danışıb. O, təlim zamanı qazanılan təcrübənin ordunun döyüş qabiliyyətinə müsbət təsir edəcəyini vurğulayıb və hərbi qulluqçuların nümayiş etdirdikləri bacarıq və peşəkarlığa görə onlara Müdafiə Nazirliyinin rəhbərliyi adından təşəkkür edib.

Sonda təlim zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində fərqlənmiş hərbi qulluqçular mükafatlandırılıb.

# Sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsi davam etdirilib



**Fevralın 11-də Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası davam etdirilib.**

Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

Məhkəmə prosesi dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən cinayət işi üzrə ittiham aktının nəticəvi hissəsinin elanı ilə davam etdirilib.

Budəfəki məhkəmə iclasında ittiham aktının Ermənistan dövlətinin onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində Azərbaycan əhalisinin məhv edilməsi və terror faktlarına dair epizodlar elan olunub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli ittihamın təcavüzkar müharibənin gedişində əhalinin məhv edilməsi faktlarına dair hissəsinin elanına başlayıb.

Bildirilib ki, təcavüzkar müharibənin gedişində Ermənistan dövlətinin bilavasitə nəzarəti altında, onun tapşırıq, göstəriş və təlimatlarında uyğun fəaliyyət göstərən cinayətkar birlik tərəfindən Qazax rayonunun Bağanıs-Ayrım, Şuşa rayonunun Malıbəyli-Quşçular, Xocavənd rayonunun Qaradağlı, Ağdərə rayonunun Baş Güney (Baş Güneypəyə), Goranboy rayonunun Ballıqaya və Gülüstan, Kəlbəcər rayonunun Ağdaban, Comərd və Başlıbel kəndlərində azərbaycanlıların qanuni şəkildə məskunlaşdıqları yerlərdən kütləvi şəkildə didərgin salınmasını təşkil etməklə həmin ərazilərin daha asan şəkildə Ermənistan tərəfindən işğal edilməsinə nail olmaq məqsədilə keçirilmiş genişmiqyaslı və sistemli hücumlar zamanı əhalini kütləvi şəkildə məhv etmək məqsədilə, ümumilikdə, 241 nəfər güllələnməklə, diri-diri yandırılmaqla, ağır dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülüb, 149 nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri yetirilərək qəsdən öldürülmələrinə cəhd edilib.

Sonra ittihamın təcavüzkar müharibənin gedişində törədilmiş terrorçuluq cinayəti faktlarına dair hissəsinin elanına başlanıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev qeyd edib ki, 1988–2023-cü illər ərzində 308 epizod üzrə törədilmiş terrorçuluq cinayətləri nəticəsində, ən azı, 210 hərbi qulluqçu və 239 mülki şəxs olmaqla, 449 nəfər şəxs qəsdən öldürülüb, 1013 hərbi qulluqçu və 716 mülki şəxs olmaqla, 1729 nəfərin qəsdən öldürülməsinə cəhd göstərilib.

Ümumilikdə, terrorçuluq cinayətləri nəticəsində 17 uşaq qəsdən öldürülüb, 53 uşağın müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülməsinə cəhd olunub.

Daha sonra dövlət ittihamçıları Fuad Musayev, Vüsal Abdullayev və Təranə Məmmədova terrorçuluq cinayətləri üzrə konkret epizodları elan ediblər.

O cümlədən qeyd edilib ki, 1991-ci il yanvarın 9-da Şuşa rayonu istiqamətində hərəkətdə olan "UAZ-469" markalı avtomobili atəşə tutaraq sürücü Qoyek İvan İvanoviçə, avtomobildə sərnişin qismində əyləşmiş sovet ordusunun hərbi qulluqçuları – 44682 nömrəli hərbi hissənin kəşfiyyat polkunun komandiri, polkovnik-leytenant Larionov Oleq Mixailoviçə və Laçın hərbi komendantlığının qərargah rəisi, mayor İvanov İqor Yuryeviçə, "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri, xidməti vəzifələrini yerinə yetirmək üçün həmin əraziyə ezam olunmuş jurnalist Əsgərova Salatın Əziz qızına güllə yaraları kimi müxtəlif bədən xəsarətləri yetirilərək, 4 nəfər şəxs qəsdən öldürülüblər.

Bundan başqa bildirilib ki, 1991-ci il noyabrın 20-də içərisində Azərbaycan Respublikasının dövlət nümayəndələri, Rusiya Federasiyasının və Qazaxıstan Respublikasının müşahidəçilərinin olduğu helikopter Xocavənd rayonuna eniş etmək üçün həmin rayonun Qarakənd kəndi ərazisi üzərindən aşağı məsafədə uçarkən cinayətkar təşkilatın üzvləri bundan məlumat alaraq AK-74 konstruksiyalı pulemyot və avtomat silahlarla, təxminən, 30 dərəcəli bucaq altında 300 metr məsafədən həmin helikopterə intensiv atəşlər açmaqla hücum edib, onu zədələyərək idarəetmədən çıxarmağa nail olublar.



Nəticədə Qarakənd kəndinin şərqində, dağın şimal yamacından 5 kilometr aralıda kəndarası torpaq yola perpendikulyar şəkildə çırpılıb partlamaqla yanmış helikopterdə olmuş Azərbaycan Respublikasının sabiq Baş prokuroru Qayıbov İsmət İsmayıl oğlu, Azərbaycan Respublikasının daxili işlər naziri Əsədov Məhəmməd Nəbi oğlu, Azərbaycan Respublikasının Dövlət katibi İsmayılov Tofiq Kazım oğlu, Azərbaycan Respublikası Baş nazirinin müavini Hacıyev Zülfü Saleh oğlu, Azərbaycan Respublikası Milli Məclisinin millət vəkilləri Cəfərov Vaqif Cəfər oğlu və Məmmədov Vəli Hüseyn oğlu, Qazaxıstan Respublikası daxili işlər nazirinin müavini Serikov Sanlal Dosumoviç, telejurnalist Mustafayev Alı Mustafa oğlu, videooperator Şahbazov Fəxrəddin İbrahim oğlu, işıq operatoru Hüseynzadə Arif İsmayıl oğlu, Azərbaycan Respublikası meliorasiya və su təsərrüfatı nazirinin birinci müavini Namazəliyev Qurban Hüseyn oğlu, Azərbaycan Respublikası Prezidenti Aparatının şöbə müdiri Mirzəyev Osman Mirzəhüseyn oğlu, Azərbaycan Respublikasının Dövlət katibinin köməkçisi Məmmədov Rafiq Məmməd oğlu, Fövqəladə vəziyyət rayonunun komendantı Jinkin Nikolay Vladimiroviç, milis general-mayoru Lukaşov Mixail Dmitriyeviç, polkovnik-leytenant Koçeryov Oleq Nikolayeviç, eləcə də Dağlıq Qarabağ üzrə Milli təhlükəsizlik şöbəsinin rəisi İvanov Sergey Semyonoviç, Azərbaycan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətinin prokuroru Plavskin İqor Aleksandroviç, Dağlıq Qarabağ Muxtar Vilayətinin Daxili işlər idarəsinin rəisi Kovalyev Vladimir Vladimiroviç, habelə helikopterin uçuş heyətinin 3 üzvü – Kotov Vyaçeslav Vladimiroviç, Dolqov Gennadi Vladimiroviç və Yarovenko Dmitri Borisoviçə ağır dərəcəli müxtəlif bədən xəsarətləri yetirməklə xidməti vəzifələrini icra edən 22 nəfər qəsdən öldürülüb.

Bununla yanaşı qeyd olunub ki, 2010-cu il yanvarın 26-da Azərbaycan Respublikasının Füzuli rayonu Aşağı Əbdürrəhmanlı kəndi ərazisində Füzuli Hərbi Prokurorluğuna məxsus olan "UAZ" markalı, 00-21 HP dövlət qeydiyyat nişanlı avtomobili avtomat konstruksiyalı silahlarla atəşə tutmaqla xidməti vəzifələrini yerinə yetirən Füzuli Hərbi Prokurorluğunun müstəntiqi Hidayətov Araz Qabil oğluna güllə yarası xəsarəti yetirilib.

Həmçinin elan edilib ki, cinayətkar birliyin üzvləri tərəfindən hazırlanan ağ rəngli, itə bənzər oyuncağın içərisinə yerləşdirilmiş tələ-mina olan partlayıcı qurğu Tovuz çayına atılmış, 2011-ci il iyulun 14-də həmin çayın Ermənistan Respublikası ilə həmsərhəd olan Tovuz rayonu Əlibəyli kəndindən keçən hissəsinin kənarında oynayan 1999-cu il 15 sentyabr təvəllüdlü – azyaşlı Şahmalıyeva Aygün Zirəddin qızının çaydan sözügedən oyuncağı taparaq marağını cəlb etdiyindən evə gətirib masanın üzərinə qoyarkən yaranmış fiziki təmasla əlaqədar baş vermiş partlayış nəticəsində ətrafa qəlpələrin səpələnməsi ilə Aygün Şahmalıyeva aldığı xəsarətlərdən hadisə yerində ölüb.

Bundan sonra dövlət ittihamçısı Təranə Məmmədova ittiham aktına əsasən 2016-cı il tarixli Aprel döyüşləri, 2020-ci il tarixli Tovuz döyüşləri və İkinci Qarabağ müharibəsi dövründə törədilmiş terrorçuluq cinayətlərini elan etməyə başlayıb.

Bildirilib ki, 2016-cı il aprelin 2–6, 24, 26–28 və 30-da iriçaplı və digər odlu silahlardan atəşlər açılmaqla Ağdam rayonu ərazisində 3 mülki şəxs qəsdən öldürülməklə, 13 mülki şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə, Tərtər rayonu ərazisində 3 mülki şəxs qəsdən öldürülməklə, 11 mülki şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə, Goranboy rayonu ərazisində 4 mülki şəxsə, Füzuli rayonu ərazisində 1 mülki şəxsə, Ağcabədi rayonu ərazisində 1 mülki şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə, ümumilikdə, 6 mülki şəxs qəsdən öldürülüb, 30 mülki şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib, eləcə də, ümumilikdə, 733 daşınmaz əmlaka tamamilə və ya qismən dağıtmaqla, yandırmaqla, zədələməklə 2,4 milyon manatdan artıq məbləğdə maddi ziyan vurulub.

Qeyd edilib ki, 2020-ci il iyulun 12–16, 17, 24 və 25-də vahid niyyətlə aparılan təcavüzkar müharibənin növbəti mərhələsində iriçaplı silahlar və digər odlu silahlardan atəşlər açmaqla Tovuz rayonunun Ağdam kəndində 1 mülki şəxs qəsdən öldürülüb, Tovuz rayonunun Ağdam kəndindən 11 nəfər, Dondar Quşçu kəndindən 35 nəfər, Əlibəyli kəndindən 4 nəfər, Yuxarı Öysüzlü kəndindən 4 nəfər, Vahidli kəndindən 8 nəfər, Aşağı Öysüzlü kəndindən 1 nəfər, Qazax rayonunun Xanlıqlar kəndindən 6 nəfər olmaqla, ümumilikdə, 69 mülki şəxsə məxsus fərdi yaşayış evlərinə və təsərrüfatlara 594 min manatdan artıq məbləğdə maddi ziyan vurulub.

Xüsusilə vurğulanıb ki, Ermənistan Respublikasının işğal altında saxladığı Azərbaycan Respublikasının ərazilərinə Ermənistan istiqamətindən daşıyaraq gətirib qurduğu mühəndis-istehkam mövqelərində əvvəlcədən yerləşdirdikləri Rusiya Federasiyasında istehsal edilmiş "Smerç" yaylım atəşli reaktiv sistem və Ermənistan Respublikası ərazisində Azərbaycan Respublikası ilə şərti təmas xəttində yerləşdirdikləri Rusiya Federasiyasında istehsal edilmiş "9K72"–"Elbrus" əməliyyat-taktiki təyinatlı raket kompleksindən istifadə edilməklə 2020-ci il oktyabrın 4-dən 17-dək olan müddət ərzində Gəncə şəhərinə davamlı şəkildə intensiv atəşlər açıb raket partlayışları zərbələri yetirməklə, ümumilikdə, 26 mülki şəxsi qəsdən öldürüb, 175 mülki şəxsə qəsdən müxtəlif dərəcəli bədən xəsarətləri yetiriblər.

Bununla yanaşı, 2020-ci il oktyabrın 5-dən noyabrın 7-dək olan müddət ərzində "Qrad" və "Smerç" markalı reaktiv yaylım atəş sistemlərindən, həmçinin "Cluster" tipli ballistik raketlərdən, minaatanlardan, digər iriçaplı silahlardan açdıqları atəşlərlə Bərdə rayonunda vahid niyyətlə, ümumilikdə, 29 mülki şəxs qəsdən öldürülüb, 103 mülki şəxsə qəsdən müxtəlif dərəcəli bədən xəsarətləri yetiriblər.

Ümumilikdə, 44 günlük Vətən müharibəsi zamanı Gəncə və Mingəçevir şəhərləri, Tərtər, Ağdam, Bərdə, Ağcabədi, Füzuli, Goranboy (Naftalan), Beyləqan, Cəbrayıl, Kürdəmir və Qəbələ rayonları üzrə, ümumilikdə, dövlət və xüsusi mülkiyyətdə olan daşınar və daşınmaz əmlaklara 187 milyon manatdan artıq məbləğdə maddi ziyan vurulub.

Həmçinin 25 epizod üzrə Şuşa şəhəri, Xocavənd rayonunun Qaradağlı kəndi, Xocalı rayonu və digər ərazilərdə köməksiz vəziyyətdə qalmış şəxslərin daşınması üçün həmin ərazilərə uçuş həyata keçirən helikopterlərin müxtəlif silahlardan atəşə tutulması, pilot və sərnişinlərə xəsarət yetirilməsi, eləcə də helikopterlərə ziyan vurulması, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin və Qərb İxrac Boru Kəmərinin Goranboy və Yevlax rayonları ərazisindən keçən hissəsinin partladılmasına cəhd göstərilməsi və digər terror aktlarına dair epizodlar da elan edilib.

Məhkəmə fevralın 14-də davam etdiriləcək.

***AZƏRTAC***

## Malıbəyli və Quşçular qətliamından 33 il ötür

**(əvvəli 1-ci səhifədə)**

Təbii ki, vaxt gələcək (onsuz da ac yalquzaq kimi siyasət meydanında tamamilə tək qalıblar) Azərbaycanın atdığı bütün addımların qanuni, ədalətli olduğunu etiraf etməli olacaqlar. Ancaq həmin vaxt gələnədək vəhşi qəbilə halında fəaliyyət göstərən "qonşu"larımıza "günahsız yerə" Bakıda saxlanılanların törətdiyi yüzlərlə cinayət əməlinin yalnız ikisini xatırladırıq. Təkcə Malıbəyli və Quşçular qırğınları sübut edir ki, bu "günahsızlar" ən ağır cəzalara layiqdirlər.

# "Bu yerlərdən, sanki, vəhşi qəbilə keçmişdi"





Bəri başdan xatırladım ki, həmin kəndlərdə soyqırımına məruz qalanların bəlkə də yarısı 1988-ci ildə Qərbi Azərbaycandan qovulmuş soydaşlarımız idi. Yəni bu gün Bakıda ittiham olunanlar öz qanlı cinayətlərini təkcə Qarabağda və Şərqi Zəngəzurda deyil, elə Ermənistan adlandırılan tarixi Azərbaycan torpaqlarında da törətmişdilər.

Söhbət ondan gedir ki, 1988-ci ilin fevralından başlanan erməni həyasızlıqları – separatçılıq hərəkətləri, torpaq iddiaları, insan ölümləri, yanğınlar, tez-tez törədilən terror hadisələri 1991-ci il oktyabrın 30-da Tuğ və Səlakətin kəndlərinin işğalı ilə nəticələnmişdi. Dişinə qan dəyən vəhşinin yırtıcılıqdan əl çəkmədiyi kimi, hay qaniçənləri də öz "uğurlarından" ruhlanaraq, həmin il noyabrın 19-da Xocavənd, 1992-ci il yanvarın 10-da isə Axullu kəndlərini çapıb-talamış, sakinləri qırmış və ya qovmuşdular.

Sonra isə vəhşilər Qarabağın ən iri yaşayış məskənlərindən olan Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndlərinə soxulmuşlar. Tarixi materiallarda oxuyuruq ki, Şuşa rayonunda, Qarabağ silsiləsinin dağətəyi ərazisində, rayon mərkəzindən 14 kilometr şimal-şərqdə, Xankəndi şəhərinin 2,5 kilometrliyində, Ağdam – Şuşa avtomobil yolundan 2 kilometr aralıda olan bu kəndlərdə karvansaralar, əttar, əllaf, baqqal dükanları, aşxanalar, çayxanalar, hamam, məscid, qala divarları, hətta kanalizasiya xətti də var idi. Yəni bu yerlərin azərbaycanlılardan başqa heç kəsə aidiyyəti yox idi. Amma qaraçı nəslindən olan ermənilər həmin kəndlərə od qoyaraq oraları da xarabazara döndərdilər.

İşğaldan əvvəl Malıbəylidə 2 orta məktəb, kitabxana, mədəniyyət evi, klub, kinoqurğu, məişət evi, poçt-rabitə şöbəsi, ambulatoriya, minarəli məscid, çay daşlarından tikilmiş hamam kompleksi, tunc dövrünə aid kurqanlar var idi. XX əsrin əvvəllərində – 1909-cu ildə dövrünün ziyalısı Məmməd Qarayev Malıbəyli kəndində qızlar üçün əyalətdə ilk rus-tatar məktəbini açdırıbmış. Kəndin şimal-şərqində Səfəvi dövrünün yadigarı olan səkkizguşəli, çatma tağlı, iki günbəzdən və su hovuzundan ibarət olan hamam tikilisi də var idi.

Quşçular kəndi isə Şuşa rayonundan 16 kilometr şimal-şərqdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə, Quşçular çayı sahilində yerləşir. Bildirilir ki, Quşçular oykonimi Qarabağda yaşamış türkdilli quşçu tayfalarının adı ilə bağlıdır. Yeri gəlmişkən qeyd edək ki, Aşağı və Yuxarı Quşçular yaşayış məntəqələri Malıbəyli kəndi ilə birlikdə xəritədə Xocalı rayonu ərazisində bir adanı xatırladır. Odur ki, erməni terrorçuları Xocalını işğal etmək üçün ilk növbədə Malıbəyli və Quşçular kəndlərini zəbt etdilər.

Mənbələrdən birində oxuyuruq: "1992-ci il fevralın 10-da erməni birləşmiş hərbi hissələri Malıbəyli kəndinə üç tərəfdən hücuma keçdilər. Həmin vaxtadək ara-sıra hücumlar, həmlələr olsa da, vəziyyət budəfəki qədər gərgin olmamışdı. Düşmənin bu hücumu əvvəlkilərə bənzəmirdi. Səhər tezdən kənd artilleriya qurğularından və iriçaplı pulemyotlardan atəşə tutuldu. Malıbəyli və Quşçular kəndlərinin kişiləri mərdliklə müdafiə olunaraq düşməni kəndə girməyə, camaatdan girov götürməyə imkan vermirdilər. Vəziyyət hər an gərginləşirdi, qadınların, qocaların, uşaqların kənddə qalması böyük faciələrə səbəb ola bilərdi".

Vəziyyət bu şəkildə – dəhşətli idi. Ona görə də ağsaqqalların məsləhəti ilə Malıbəylinin dinc əhalisi qonşu Quşçular kəndinə gətirilir. Ancaq kəndin kişilərinin silah-sursatı, ov tüfəngi belə olmadığından düşmənin mühasirə dalğası daralır, saatlar ötdükcə Quşçular kəndini də ağuşuna alırdı. Malıbəyli və Quşçular kəndlərinin 3 minədək əhalisi düşmən əlinə keçməmək üçün ya Xocalıya, ya da Ağdama doğru hərəkət etməli idi. Ancaq düşmən Xocalı istiqamətində əhalini qırmaq və girov götürmək üçün güclü hazırlıq işləri görmüşdü. Odur ki, Malıbəyli əhalisi soyuq fevral gecəsində Abdal və Gülablı kəndləri istiqamətində 16 kilometr yolu keçib Ağdama tərəf gəlməyə qərar verdi.

Ancaq... Ağbulaq və Pircamal kəndləri yaxınlığındakı zirvələrdə mövqe tutan ermənilər əhalinin keçə biləcəyi yolu nəzarətə götürmüşdülər. Üç minlik əhalinin salamat çıxarılmasını cəmi 60 nəfər müdafiəçi öz üzərinə götürmüşdü. Təpələrin başında yüksək mövqe tutmalarına baxmayaraq, ermənilərin hücumunun qarşısı alındı. Həmin gün Malıbəyli və Quşçular əhalisindən 8 nəfər şəhid oldu, 3 nəfər girov götürüldü, 20 nəfər ağır yaralanaraq bədən xəsarətləri aldı. Fevralın 11-də 18.00-da Malıbəyli–Quşçular camaatı minbir müsibətlə Ağdamın Abdal və Gülablı kəndlərinə yetişdi. Hər iki kənd fevralın 11-dən 12-nə keçən gecə işğal olundu...

... Sonra Xocalı soyqırımı törədildi, şəhər, rayon və kəndlərimiz bir-birinin ardınca işğal edildi, ərazilərimizin 20 faizi düşmən tapdağı altına düşdü və biz, az qala, otuz il öz kəndlərimizin, elimizin-obamızın həsrəti ilə yaşadıq.

... Sonra isə qətiyyətli və qeyrətli Azərbaycan Prezidenti, qüdrətli Azərbaycan Ordusu həmin vandal, barbar, vəhşi qəbilələri ölkəmizdən "iti qovan kimi" qovdu. Onların Azərbaycan ərazisində qurmaq istədikləri ikinci dövlət "gorbagor" oldu. Arzuladıqları "status cəhənnəmə vasil" oldu. İki əsrlik istəkləri gözlərində yaşa çevrildi. Min illər boyu uydurduqları "xəyali dövlət tarixin zibilliyinə" atıldı. Haqqında miflər uydurulan erməni ordusu dünya miqyasında rəzil oldu, çiliklənib fərari-fərari gözdən düşdü.

... Sonra həmin ərazilərdə torpağın həqiqi sahibləri cənnətmisal yaşayış məskənləri salmağa başladılar. O yerlərin həqiqi sakinləri öz ocaqlarına qayıdırlar.

Uğur olsun! Ocaqları sönməsin!

***İttifaq MİRZƏBƏYLİ***

# Nağdsız əməliyyatlar rekordu

## *Ölkəmizdə ödəniş kartları 20 milyona çatıb*

**Media Təhlil Mərkəzinin məlumatına görə, ölkəmizdə istifadədə olan ödəniş kartlarının sayı 2020-ci ilin sonu ilə müqayisədə 107,9 faiz (2,1 dəfə) və ya 10 milyon 327 min 571 ədəd artaraq 20 milyona yüksəlib. Son bir ildə Azərbaycanda istifadədə olan bank kartlarının sayı 17,6 faiz və ya 2 milyon 973 min 578 ədəd artaraq 19 milyon 898 min 735 ədəd olub. Hər il sürətlə artan bank kartlarının sayı artıq əhalinin sayından 2 dəfəyə yaxın çoxalıb.**



Təhlil Mərkəzinin məlumatında bildirilir ki, 2020–2024-cü illərdə Azərbaycanda istifadədə olan debet və kredit kartlarının ayrı-ayrılıqda sayına diqqət yetirilərsə, dövriyyədə olan debet kartların sayının kredit kartlarına nisbətən daha sürətlə artdığı aydın olar. Bu, həm əməkhaqqı, pensiya və digər ödənişlər üçün ayrılan kartların məhz debet kart olması, həm də bu kartları əldə etmək üçün şərtlərin kredit kartları ilə müqayisədə daha asan reallaşması ilə bağlıdır.

2024-cü ilin sonuna olan məlumata görə, Azərbaycanda istifadədə olan debet kartlarının sayı 17 milyon 642 min 376 təşkil edib və bu, son bir ildə dövriyyədə olan debet kartlarının sayının 19,9 faiz və ya 2 milyon 932 min 903 ədəd artması deməkdir.

Son 3 ilin statistik göstəricilərinə diqqət yetirilsə, bu dövrdə istifadədə olan kredit kartlarının sayında da yüksək artım qeydə alındığı nəzərə çarpar. Təkcə 2024-cü ilin sonunda kredit kartların sayında 1,8 faiz və ya 40 min 675 ədəd artım müşahidə olunub. Bu da o deməkdir ki, kredit kartlarının alınması üçün banklar tərəfindən gəlir yeri tələb olunsa da, son 3 ildə bu kartı ala biləcək şəxslərin sayı artıb.

Aparılan təhlil zamanı məlum olub ki, 2020–2024-cü illərdə debet kartların sayı 108,1 faiz (2,1 dəfə) və ya 9 milyon 164 min 6 ədəd, kredit kartların sayı isə 106,5 faiz (2,1 dəfə) və ya 1 milyon 163 min 565 ədəd çoxalıb. 2024-cü ilin sonuna olan göstəricilərə əsasən, ölkədəki bank kartlarının 88,7 faizi debet, 11,3 faizi isə kredit kartları olub.

Media Təhlil Mərkəzinin məlumatında rəsmi rəqəmlərə əsaslanılaraq qeyd edilir ki, son 5 ildə Azərbaycanda nağdsız ödənişlərin həcmi hər il sürətlə artır. Buna səbəb bankların nağdsız ödənişlər zamanı müəyyən keşbeklər təklif etməsi, həmçinin "ƏDV geri al" üzrə nağdsız ödənişlərə daha çox (17,5 faiz) faiz tətbiq edilməsidir. Vətəndaşların elektron ticarət vasitəsilə apardıqları əməliyyatlar da bu artımda böyük rol oynayır.

Bildirilir ki, 2024-cü ildə respublikada gerçəkləşdirilən nağdsız əməliyyatların həcmi rekord həddə çatıb. Belə ki, hesabat dövründə ölkə daxilində nağdsız ödənişlərin həcmi 78,9 milyard manat (2023-cü illə müqayisədə 60,9 faiz çox) olub.



# İllik kondensat hasilatı 2 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il ölkəmizdə 5 milyon 292 min ton (2023-cü ilin göstəricisi ilə müqayisədə 1,7 faiz çox) kondensat hasil edilib. Bildirilib ki, hesabat dövründə ölkədə neft hasilatının ümumi həcmində kondensatın payı 18,2 faiz, neftin payı isə 81,8 faiz (23 milyon 772 min ton) olub.**

Xatırladaq ki, Azərbaycanda hasil edilən kondensatın əsas hissəsi "Şahdəniz" yatağının hesabına gerçəkləşdirilir. Bu yataqdan hasil edilən məhsulun bütün həcmi Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə ixrac edilir. 2023-cü ilin iyulunda istismara verilmiş "Abşeron" qaz-kondensat yatağı və "Ümid" yatağı ("Ümid–Babək" bloku) da kondensat hasilatına töhfə verir. "Abşeron" qaz-kondensat yatağının işlənməsi iki mərhələdə həyata keçirilir. İlkin Hasilat Sxemi (İHS) layihəsi çərçivəsində hazırda gündəlik, təqribən, 4,3 milyon kubmetr qaz və 1400 ton kondensat hasil olunur.

Azərbaycanın təsdiqlənən qaz ehtiyatı 2,2 trilyon kubmetrdir. Ölkəmizin illik qaz ixracı isə 21 milyard kubmetr təşkil edir. Yaxın 5 il ərzində Azərbaycan bu həcmdə qaz ixracını 30–31 milyard kubmetrə qədər artırmağı planlaşdırır. Avropaya qaz ixracının isə 11 milyarddan 20 milyard kubmetrədək yüksəldilməsi proqnozlaşdırılır.

"Abşeron" qaz-kondensat yatağından çıxarılan "mavi yanacaq" mühüm önəm daşıyır. Çünki indiyə kimi Azərbaycanın ixracla bağlı əsas qaz resursu "Şahdəniz" qaz-kondensat yatağı idi. Bu gün isə artıq ölkəmizə məxsus iki böyük qaz-kondensat yatağı var.

Ölkəmizin qaz ehtiyatlarının həcminə görə, ikinci böyük yatağı olan "Abşeron"-dan hasilatın başlanması ilə ixracın artırılmasına müsbət təsir göstərəcəyi proqnozlaşdırılıb.

"Abşeron" qaz-kondensat yatağının işlənməsinin İHS mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

JOCAP (Absheron Petroleum Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə SOCAR və "TotalEnergies" hər biri 50 faiz paya malikdir. Xəzər dənizinin ilk məsafədən idarə olunan platforması olan Abşeron İHS layihəsinin qəbul platformasının idarəetməsi "Neft Daşları"nda yerləşən mərkəzi idarəetmə məntəqəsindən həyata keçirilir.

Sonda bildirək ki, "Abşeron" çox mürəkkəb quruluşa malik qaz-kondensat yatağı olaraq indiyədək Xəzər dənizində açılan və istismar edilən ən dərin hissədə yerləşir. Əgər "Şahdəniz" yatağı dənizin 550 metr dərinliyində yerləşirsə, "Abşeron" 600 metr dərinlikdədir. O cümlədən, məhsuldar qaz layları əgər "Şahdəniz"də 6 min 800 – 7 min 100 metr dərinlikdədirsə, "Abşeron" yatağında bu 7 min 300 metr dərinliyə qədər uzanır. Ona görə, mürəkkəblik baxımından Xəzər dənizində indiyədək hasilat gözlənilən ən mürəkkəb yataqdır.

# Azərbaycanda elektromobillərin sayı artıb



**Son illər ölkəmizdə elektrik mühərriki ilə işləyən avtomobillərin sayı sürətlə artır. Bu tendensiya 2024-cü ildə də davam edib.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu il yanvar ayının 1-nə Azərbaycanda elektrik mühərrikli minik avtomobillərinin sayı 5941 ədəd təşkil edib. Bu isə əvvəlki ilin müvafiq dövrünə nisbətən xeyli çoxdur. Xatırladaq ki, 2024-cü il yanvarın 1-nə ölkədə 3115 elektromobil olub.

Yeri gəlmişkən, ötən il Azərbaycana, ümumilikdə, 91,8 min ədəd nəqliyyat vasitəsi idxal edilib ki, bunun da 3027 ədədi elektromobil, 26 min 197 ədəd isə hibrid nəqliyyat vasitələri olub.

# Mikrosahibkarlıq inkişaf edir

## *178 min belə subyekt uğurla fəaliyyət göstərir*

**Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, 2025-ci əvvəlinə Azərbaycanda 178 min mikrosahibkarlıq subyekti (ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 min 171 ədəd və ya 6,7 faiz çox) fəaliyyət göstərir.**



Hesabat dövründə ən çox mikrosahibkarlıq subyekti Bakı şəhərində qeydə alınıb. Belə ki, şəhərdəki mikrosahibkarlıq subyektlərinin sayı 122 min 269 ədəd olub. İkinci yerdə Abşeron–Xızı iqtisadi rayonu (12 min 178 mikrosahibkarlıq subyekti), üçüncü yerdə isə Lənkəran–Astara iqtisadi rayonu (6 min 574 mikro sahibkarlıq subyekti) yer alıb.

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında 1538, Dağlıq Şirvan iqtisadi rayonunda 1826, Gəncə–Daşkəsən iqtisadi rayonunda 4 min 380, Qarabağ iqtisadi rayonunda 3 min 984, Qazax–Tovuz iqtisadi rayonunda 3 min 56, Quba–Xaçmaz iqtisadi rayonunda 3 min 908, Mərkəzi Aran iqtisadi rayonunda 4 min 120, Mil–Muğan iqtisadi rayonunda 4 min 826, Şəki–Zaqatala iqtisadi rayonunda 4 min 475, Şərqi Zəngəzur iqtisadi rayonunda 882, Şirvan–Salyan iqtisadi rayonunda isə 4 min 45 mikrosahibkarlıq subyekti fəaliyyət göstərib.

Qeyd edək ki, mikrosahibkarlıq subyektlərinin 11 min 829-u aqrar sektor, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 10 min 850-si emal sənayesində, 16 min 438-i tikinti, 62 min 278-i ticarət, 13 min 830-u peşə, elmi və texniki fəaliyyət, 10 min 986-sı inzibati və yardımçı xidmətlərin göstərilməsi sahələrində fəaliyyət göstərir. Ən az mikrosahibkarlıq subyektləri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində fəaliyyət göstərir. Bu istiqamətdə fəaliyyət göstərən mikrosahibkarlıq subyektlərinin sayı 191-dir.

# Naxçıvan məhsulları dünya bazarlarında



**(əvvəli 1-ci səhifədə)**

Təsadüfi deyil ki, indiyədək dövlət başçısı tərəfindən qəbul edilən dövlət proqramlarında da bu sahənin inkişafı diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikasında da istehsalyönümlü müəssisələrin yaradılması ən çox təşviq olunan məsələlərdəndir. Yerli sahibkarların region iqtisadiyyatına töhfəsi kimi qiymətləndirilən belə layihələr, həm də əhali məşğulluğuna öz töhfəsini verir. Haqqında bəhs edəcəyimiz "ENNA" MMC də bu sırada istisna deyil.

"Cahan Şirkətlər Qrupu"nun tərkibində fəaliyyət göstərən "ENNA" MMC 2023-cü ildən fəaliyyət göstərir və enerji içkiləri istehsalı ilə məşğuldur. İllik istehsal gücü 230 milyon qutu olan müəssisə hazırda ölkəmizdə bu istiqamətdə fəaliyyət göstərən ən böyük istehsal müəssisəsidir".

Bu sözləri "ENNA" MMC-nin icracı direktoru Ruslan Əlimərdanov deyir. Bildirir ki, iki ilə yaxındır fəaliyyət göstərən müəssisə Türkiyə, Almaniya və digər Avropa ölkələrindən gətirilmiş ən müasir avadanlıqlarla təchiz olunub. Müəssisə satışa bağlı olaraq 3 növbəli iş rejiminə uyğun qurulub. Müasir texnoloji avadanlıqların tətbiqi müəssisədə, demək olar ki, bütün proseslərin avtomatik həyata keçirilməsini təmin edir. Hazırda burada 40 işçi çalışır və əməkdaşlar üçün müasir iş şəraiti yaradılıb.

Bəs bu gün "ENNA" MMC-də istehsal olunan məhsullar hansı bazarlara yönəldilir? Bu suala cavabında müəssisənin ixrac meneceri Bəxtiyar Hacıyev bildirir ki, zavodun fəaliyyəti dövründə hər il istehsal həcmi intensiv olaraq artır, regionlara energetik içkilərin satışı həyata keçirilir. "ENNA" brendi olan içkilər isə artıq Qazaxstan, Özbəkistan, Gürcüstan, ABŞ, Rusiya və İrana ixrac olunur. Yüksək standartlara cavab verən məhsulların Tacikstan, Çin, Almaniya və Səudiyyə Ərəbistanına ixracı üçün hazırda danışıqlar aparılır.

Yeri gəlmişkən, bir neçə gün bundan əvvəl Naxçıvan Baş Gömrük İdarəsinin təşəbbüsü və "Cahan Şirkətlər Qrupu"nun birgə təşkilatçılığı ilə şirkətə daxil olan "ENNA" MMC-də görüş keçirilib. Görüşdə gömrük idarəsinin nümayəndələrinə müəssisənin fəaliyyəti, istehsal edilən məhsulların analizi, çeşidləri haqqında ətraflı məlumat verilib. Eyni zamanda, gömrük-biznes əməkdaşlığı çərçivəsində rəy və təkliflər dinlənilib, idxal-ixrac əməliyyatları zamanı qarşıya çıxan məsələlər geniş təhlil olunub.

Bütün bunlar bir daha onu göstərir ki, yerli istehsal məhsullarının ixracı həm sahibkarların, həm də aidiyyəti dövlət qurumlarının diqqət mərkəzində saxlanılır. Yaxın gələcəkdə isə muxtar respublikanın nəqliyyat blokadasının aradan qaldırılması bu işə daha çox töhfə verəcək.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"nin Naxçıvan müxbiri***

# Yeni beton zavodları yaradılır




**Paytaxtın Balaxanı qəsəbəsində təməli qoyulmuş beton zavodları tikinti sektorunun inkişafına əhəmiyyətli töhfələr verəcək. "Norm" Açıq Səhmdar Cəmiyyətinə məxsus 2 yeni beton zavodu bu ilin aprel ayından istehsala başlayacaq.**

Hər birinin istehsal gücü saatda 120 kubmetr beton təşkil edən yeni zavodlar müasir texnika və avadanlıqla təchiz edilib. Burada ən son texnologiyalarla əmtəə betonunun istehsalı nəzərdə tutulur. Yaxın vaxtlarda isə şirkət tərəfindən Qarabağ bölgəsində üçüncü beton zavodunun inşası həyata keçiriləcək. Bu zavodda da saatda 120 kubmetr beton istehsal olunacaq. Müəssisələrdə 80-ə yaxın işçi fəaliyyət göstərəcək. Beton zavodlarının işə düşməsi tikinti şirkətlərinə bir çox mühüm dövlət satınalmaları vasitəsilə həyata keçirilən, eləcə də özəl inşaat layihələrində betona tələbatın vaxtında və səmərəli qarşılanması üçün sabit təchizat imkanı təqdim edəcək.

"Norm"un yeni zavodlarında betonun təkrar edilməsi üçün də xüsusi avadanlıq quraşdırılacaq. Bu avadanlıq vasitəsilə istehsal prosesində, betondaşıyan maşınların yuyulması zamanı, eləcə də tikinti sahəsində artıq qalan betonu xüsusi mexanizmlə təkrar emal etmək və tərkibindəki komponentləri beton istehsalında yenidən istifadə etmək mümkün olacaq. Bu da, öz növbəsində, resursların səmərəli istifadə olunmasına və ətraf mühitə təsirin minimuma endirilməsinə şərait yaradacaq.

Sənaye sahəsində ölkənin böyük istehsal sahəsi sayılan "Norm" bazara daxil olduğu vaxtdan etibarən özünün kommersiya strategiyasına əsasən tikinti sektorunda yeni biznes subyektlərinin yaradılması, inkişaf etdirilməsi və inşaat sənayesi üçün təhlükəsiz materialların istehsalını hədəfləyib. Yüksək standartlarla sement istehsalından sonra eyni yanaşma ilə əmtəə betonu istehsalında da fəaliyyətə başlaması şirkətə inşaat işlərinin keyfiyyətinə nəzarət etmək imkanı yaradacaq.

Xatırladaq ki, "Norm" ASC 10-dan çox ölkədə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən beynəlxalq şirkətlər qrupu olan NEQSOL Holding-in tərkibinə daxildir.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Öyünclü sorağımız

# Nəriman Nərimanovun Türkiyəyə qardaş köməyi

**Ankaraya növbəti səfərimdə köhnə dostumuz – Türkiyənin keçmiş mədəniyyət naziri Namiq Kamal Zeybəkə baş çəkməyi özümə borc bildim. Məni ofisinə dəvət etdi. Adətim üzrə əliboş getmədim. Özümlə onun xoşladığı Şəki halvası, Azərbaycan çayı da apardım. Bundan başqa, 2007-ci ildə Atatürk mərkəzində çap etdirdiyim "Türk olmaq" kitabının şəklini köynəyə həkk etdirmişdim. Və həmin köynəyi onun ömür-gün yoldaşı Alsuman xanıma hədiyyə elədim və birlikdə şəkil çəkdirdik. Namiq Kamal Zeybək isə özünün yenicə çapdan çıxan "Atəşdən adamlar" kitabını mənə bağışladı. Həmin kitab Türk inqilabının öndə gedən savaşçılarına, Atatürkün silah və əqidə dostlarına həsr olunmuşdur. Həmin topludan "Nəriman Nərimanov (qardaş köməyi)" adlı məqaləni kiçik ixtisarla "Xalq qəzeti"nin oxucularına təqdim edirəm.**






Süleyman Dəmirəl baş nazir olduğu 1992-ci illərdə mən də Türkiyə Cümhuriyyətinin baş nazirinin baş danışmanı, böyük elçisi idim. İşimlə əlaqədar İstanbulda Osmanlı arxivinin baş idarəsində uzun müddət çalışmalı oldum. Həmin günlərdə arxiv müdiri masasının üzərindəki rəsmi sənədi mənə göstərdi. Sənəd 1914-cü ilə aid idi. Sənəddə belə yazılırdı: "Ədirnədə tikilən yetimlər evi üçün Bakı türklərinin göndərdiyi pul vəsaiti bu cür xərclənmişdir". Bu, əslində, qardaş köməyi kimi dəyərləndirilən yardım idi.

17 mart 1921-ci ildə Atatürk Azərbaycanda məsul vəzifədə olan Nəriman Nərimanovdan borc istəmişdi. Nəriman Nərimanov isə cavabında qardaş qardaşa borc verməz, yardım edər, – deyə arzu olunan məbləği göndərmişdi.

Sonradan Rusiyadakı türklərlə toplanan yardımlar da həmin qardaş yardımına əlavə olunmuşdu. Məsələni daha yaxşı anlamaq üçün Atatürkün 15-ci ordu komutanı Kazım Qarabəkir paşaya göndərdiyi 3 may 1920-ci il tarixli teleqramdan oxuyuruq:

"15-ci Kolordu komutanı Kazım Qarabəkir Paşa həzrətlərinə. Əlimizdə pul-para olmadığı məlumdur. Hazırda bir mənbə də tapa bilmirik. Digər tərəfdən Azərbaycan hökumətindən müəyyən miqdarda borc almaq imkanını düşünmənizi və təmin edilməsini rica edirəm. Böyük Millət Məclisin rəisi M. Kamal".

Daha sonra Atatürk 17 mart 1921-ci il tarixli məktubunda borc istədiyini bildirir. 23 mart 1921-ci ildə N. Nərimanov cavab verir:

"Paşam, türk millətinin bir ənənəsi var. Qardaş qardaşa borc verməz. Qardaş hər durumda qardaşının əlindən tutar, biz qardaşıq, hər zaman əlinizdən tutacağıq. Hər zaman və hər şərtlə bir-birimizin əlimizdən tutmağa davam edəcəyik. Bugün etdiyimiz yardım qardaş köməyindən başqa bir şey deyildir".

Nərimanov özünün etdiyi köməkdən savayı, Leninə də vəziyyəti izah edir və onu da yardım etməyə inandırır. N. Nərimanov Azərbaycan büdcəsindən 500 kilo qızıl göndərir. Üstəlik, 30 vaqon neft, 2 vaqon benzin, 8 vaqon qazyağı göndərir.

Yenidən 2 may 1921-ci ildə 62 vaqon neft, Bakıdakı Türk nümayəndəliyinə 1 milyon qızıl rubl göndərir, yetimlər üçün yardım toplanır. Nəriman Nərimanovun adından xarici işlər naziri Hüseynov Türkiyəyə belə bir telegram göndərir: "Bundan sonra Azərbaycan hökuməti qardaş türk xalqına müstəqillik uğrunda apardığı mübarizəni qiymətləndirərək, yetim qalmış uşaqlar üçün tikilən yetimxana üçün hər ay 62 vaqon neft, 3 vaqon qazyağı göndərməyi söz verib."

Eyni zamanda, həmin dövrdə Azərbaycandan könüllü olaraq zabitlər və əsgərlər də türk ordusuna qulluq edir. Onlardan bəziləri hətta müharibədən sonra türk ordusunda mühüm vəzifələri tutur. Azərbaycan hökumətinin Türkiyəyə göndərdiyi ilk səfir İbrahim Əbilov 22 oktyabr 1921-ci ildə Atatürkə yazdığı təşəkkür məktubunda minnətdarlıq əlaməti olaraq övladının adını Atatürk qoyduğunu bildirib.

17 sentyabr 1922-ci ildə Bakıda Qızılay tərəfindən toplanan yardımlar da Türkiyəyə göndərilib. Bununla əlaqədar Nərimanov yazırdı: "Əgər bütün Yer üzərində müharibə olsa belə, Azərbaycan Rusiya ilə birlikdə Türkiyənin yanında yer alacaqdır". Həmin dövrdə Nərimanovun sözü Leninin yanında keçir və onu davamlı olaraq Türkiyəyə dəstək göstərməyə istiqamətləndirir. Hətta Nərimanovun bununla əlaqədar Stalinə məktub göndərdiyi də məlumdur.

Nərimanov Atatürkə var gücü ilə dəstək olduğunu bildirməklə yanaşı, Türkiyənin Osmanlı dönəmindəki Panislamist siyasətinin yanlış olduğunu söyləyir. "Nikolay taxtdan enənə qədər panislamistlərlə çalışdım. Onda bizim bir məqsədimiz var idi. Nikolayı devirmək... Onlar panislamizmlə bağlı fikirlərini bildirəndə mən gülərdim, onlara bu, baş tutmayacaq deyərdim."

Nəriman Nərimanov Lenindən sonra Stalinin istəyi ilə Azərbaycandan uzaqlaşdırılıb və Moskvaya çağırılıb. 19 mart 1925-ci ildə isə müəmmalı şəkildə öldürülüb.

Xüsusi vurğulamaq lazımdır ki, Nəriman Nərimanov sosialist düşüncə tərzinə malik olmaqla birlikdə TÜRKÇÜ idi. Azərbaycan Respublikasında dövlət dilinin rəsmi olaraq Azərbaycan türkcəsi olmasında onun zəhməti çoxdur. Hətta bununla əlaqədar bəzi fikirləri demişdir: "Millətin dilini bilməyənlər onun problemlərini həll edə bilməzlər. Qan təmiz olanda ürək yaxşı çalışdığı kimi, dilində qüsur olan adamlar da millətin inkişafında çətinlik yaradar". Azərbaycan dilinin məktəblərdən çıxarılmasını istəyənlərə qarşı çıxar, analarımızın laylalarını qan yaddaşımızdan silə bilmərik, – deyərdi.

***Akif ƏHMƏDGİL***

Olanlardan, keçənlərdən

# Əlağa Vahid – türk əruzunun ustadı

## *O, repressiyadan özünü necə qoruyub?*

**Qarşıdan XX əsrin məşhur qəzəlxan şairi və meyxanaçısı, Əməkdar incəsənət xadimi Əliağa Vahidin anadan olmasının 130 illiyi gəlir. Xalqın sevimli şairinin həyat və yaradıcılıq bioqrafiyası maraqlı və özünəxas səhifələrlə zəngindir. O, milli poeziyanın qədim ənənələrini yeni dövrdə yüksək sənətkarlıqla davam etdirib və qəzəl janrının mükəmməl nümunələrini yaradıb.**



Əlağa Vahid 17 fevral 1895-ci ildə Bakı şəhərində anadan olub. 16 yaşında ikən "Cüvəllağı" imzası ilə "Dolaşma" adlı ilk şeirini "Molla Nəsrəddin" jurnalında çap etdirib. Sonra Əlağa "Məcməüş-şüəra" şairlər məclisində cavanlara verilən qafiyəni qəzələ hamıdan yaxşı çevirdiyi üçün ağsaqqal şair Əbdül Xaliq ona: "Sən bu təbinlə vahidsən", – deyərək, şeirlərini "Vahid" təxəllüsü il yazmasını məsləhət görüb.

Güclü hafizəsi olan sinədəftər istedadlı gənc "Vahid" imzası ilə çoxlu lirik və satirik şeirlər yazıb. Amma o, bəzi davranışlarında "Cüvəllağı"lığını da, necə deyərlər, yerə qoymayıb. Məsələn, söylənilənlərə görə, repressiya zamanı özünü içki düşkünü kimi göstərib ki, ona toxunmasınlar və bu da karına gəlib. Bəlkə də bu, onun eyni zamanda, meyxana deməsi ilə bağlıdır. Meyxana



zahiri mənasında "mey" və "xanə" sözlərini ehtiva edir, əslində isə buradakı "mey" deyimi şairin qarşısındakını, sanki, təsirli, bihuşedici qüvvəyə malik sözlərlə bir anlığa "məst" etməsi mənasında işlədilib.

Elə repressiya cəlladları da Vahidin kələyinə – bu cür demək mümkündürsə – bilərəkdən, ya bilməyərəkdən aldanıblar. Bir gün Mircəfər Bağırova növbəti qurbanların siyahısını verirlər. Vahidin də adı orada olur. Bağırov Vahidin adının üstündən xətt çəkir ki, bütün günü sərxoş olan adamdır, ondan bizə nə ziyan gələcək?

Azərbaycan poeziyasında türk əruzunun ustad nümayəndələrindən sayılan Əliağa Vahid Bağırov tərəfindən Əməkdar incəsənət xadimi fəxri adına da layiq görülüb.

O, bir müddət yaxşı şəraitdə yaşamayıb. Hətta, 1951-ci ildə bununla bağlı Mircəfər Bağırova şeir də yazıb. Həmin şeir belədir:

**Evimi görsə naxırçı,**
**deyər, samanlıqdır,**
**Havası yox, həmi nəmdir,**
**həmi qaranlıqdır.**
**Divarda ağcaqanadlar,**
**yer üstə taxtabiti,**
**Hücuma bax gecələr,**
**gör nə hökmranlıqdır.**
**Hünərdir ay yarım hər kim**
**bu evdə ömr eləsə,**
**İnanmaram dirilə,**
**şübhəsiz, oyanlıqdır.**
**Çox ərizə yollamışam**
**Baksovetə, Raysovetə,**
**Gözləməkdir işim,**
**məsələ dumanlıqdır.**
**Düzəltsəniz siz əgər, rəhbərim,**
**mənə bir otaq,**
**Yüz il təşəkkürə layiq,**
**bu, dastanlıqdır.**

Bu şeirdən sonra Bağırov Vahidi yanına çağırtdıraraq, ona 10 min manat pul və Ağa Nemətulla küçəsində yeni bir mənzilin orderini verib.

Təqdim etdiyimiz ailə fotosu o vaxtın yadigarıdır. "Vişnyovka"da (indiki "Albalı bağları") çəkilib. Vahidin həyat yoldaşı Şəhrabanu, oğlu Ramiz və qızı Firəngizlə çəkdirdiyi bu şəkil şairin adını daşıyan kitabxanadakı guşədə saxlanılır.

Ramiz Vahidoğlu atasının yeyb-içən adam olduğunu, amma qədərini aşmadığını söyləyib. Şair haqqında çəkilmiş "Qəzəlxan" filmində, guya, onun qan qusması ilə bağlı epizodun olmasından narazılığını da bildirib. "Deyilən, yazılan qədər içki içən deyildi. Sərxoş olub heç yerdə yıxılmayıb, heç kimə sataşmayıb. Özünü qorumaq üçün içirdi".

Əslən şairlər məkanı Maştağadan olan, gəncliyində xarrat kimi əmək fəaliyyətinə başlayan Vahid sonra şair kimi tanınıb, amma sənətdə də əsl xiridar kimi "xarrat"lıq edib ki, gözəl cilalı misraları, beytləri onillərdir bəyənilib sevilir. Şeirsevərlər onu əzbərdən bilir, xanəndələr də oxuyurlar.

***Əli NƏCƏFXANLI***
***XQ***

Replika

# "Hibrid dili"n eybəcərliyi

**Hələ ötən əsrin 80-ci illərinin sonlarından cəmiyyətdə rus dilinin hegemonluğuna qarşı mübarizədə ana dilimizin saflığının qorunmasına ciddi səylər göstərilməyə başlanıb. Mənəvi tələbat olan milli özünüdərkin bir qanadı da nitqimizin sovet dövründən dilimizə düşmüş rus sözlərindən təmizlənməsi, söhbətlərimizin ifadə qarışıqlığından yaranan hibrid danışıqdan arıtlanması olub. Təəssüf ki, bu gün də ana dilimizdə danışarkən xeyli sayda rus sözlərini yerli-yersiz nitqimizə daxil edir, onu bir növ eybəcərləşdiririk.**





Əlbəttə, qeyri millətlərdən olan həmyerlilərimiz bizim dildə danışırlarsa, buna sevinirik, amma özümüz öz dilimizdə səlis danışmağa, nədənsə, bəzən tənbəllik edirik. Vaxtilə nitqinə yersiz olaraq bol-bol əcnəbi sözləri pərçim edənləri Mirzə Cəlil kinayə ilə "obrazovannılar" adlandırırdı. Onun "Bakılılar" adlı felyetonundan bir misal: "uştellər çetıre çasaya kimi ispat eləmirlər".

Etiraf edək ki, bu gün aramızda "obrazovannılar" yenə də çoxdur. Belələrinə baxanda istər-istəməz düşünürsən: "Bu həftəbecərdənsə, elə təmiz rusca danışsalar, məsləhətdir. Dilimizdə alaq otu kimi bitmiş rus sözləri o qədərdir ki... "Uje", "daje", "nol", "neujeli", vot tak", "okazıvayetsya", "mestnı", "importnı", "davay" kimi dilimizdə gözəl qarşılığı olan sözlər, nədirsə, nitqimizdə, az qala, "vətəndaşlıq" hüququ qazanıb.

Son bir neçə gündə küçədə, metroda, mağazada qulaq günahkarı olaraq eşidib qeyd etdiyim hibrid danışıq nümunələrindən bir neçəsini oxuculara təqdim edirəm: "Prisyaqa qəbul elədik", " "Xolodenniyi aç", "Sapoşki aldım", "Pastayannı vilka yaddan çıxır", "Yubkasının razrezinə bax", "Pivə svejidi?", "Az baltat elə, az", "Onu palaskat elədilər", "Nujenni?", "Spiçkanı ver", "Məndə zajiqalkadır", "Sizdə otopleni var?", "Davay, ni budem", "Lişni sən demisən", "Tuda-suda, razılaşdıq", "Yaman marozdu", "Tamadaya zakaz ver". Bunlar dərd yarıdır. Bir qadın, görün, ərinəmi, oğlunamı, ya kiməsə nə dedi: "Xotja bı, vetrovkanı geyin, düş parikmaxerə, saçını ukladka elətdir, ol sveji, kak oqurçik". – 13 sözdən cəmi 5-i bizim dildə idi (?!)

Əziz oxucular! Yəqin ki, siz də tez-tez bu kimi halların şahidi olursunuz. Bəlkə ötüb, keçməyək, iradımızı bildirək. Xeyri olarmı?..

Dil milli varlığın təsdiqidir. Bunlarlın danışdığı isə, hibrid, metis dil deyilsə, bəs nədir? Burada unudulmaz şairimiz Əli Kərimin misraları yada düşməyə bilmir:

**Baxımsızlıq olan yerdə**
**Söz özü də baxmır sözə.**

Gəlin, dilimizin qədrini bilək, onu eybəcərləşdirməyək, baxımsızlıqdan məhvə sürükləməyək. Bunu qanun da tələb edir, vətəndaşlıq borcumuz da.

***Ə.DOSTƏLİ***
***XQ***

# "Qış nağılı" sona yetdi



**Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Bakı Musiqi Akademiyasının və "Gilan"ın dəstəyi ilə Qəbələdə ilk dəfə keçirilən "Qış nağılı" Beynəlxalq Musiqi Festivalı başa çatıb.**

Ənənəvi Qəbələ Beynəlxalq Musiqi Festivalının davamı olaraq sənətsevərləri yenidən bir araya gətirən "Qış nağılı" öz möhtəşəmliyi ilə musiqi dünyasının diqqətini Qəbələyə cəlb edə bilib. Dörd gün davam edən musiqi bayramında Azərbaycanla yanaşı, Böyük Britaniya, Almaniya, İtaliya, Polşa və Rusiyadan dünyaşöhrətli musiqiçilər çıxış ediblər. Festivalın davam etdiyi günlərdə musiqisevərlər və Qəbələnin qonaqları Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin, Bakı Kamera Orkestrinin, Bakı Xoreoqrafiya Akademiyasının şagird və tələbələrinin, Almaniya və Rusiyanı təmsil edən Aydar Qaynullinin "Eyforiya", Polşanın "Glassduo" ansambllarının konsertlərini, Azərbaycanın və xarici ölkələrdən gələn tanınmış ifaçıların çıxışlarını izləmək imkanı əldə ediblər.

"Qış nağılı"nın son akkordları isə fevralın 10-da axşam Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində vurulub. Festivalın yekun konsertində Xalq artisti Ənvər Sadıqov (qarmon), Əməkdar artist Emil Əfrasiyab (piano) və "Qaytağı" instrumental ansamblı tamaşaçılara Azərbaycan və Qərbi Avropa bəstəkarlarının əsərlərindən ibarət möhtəşəm proqram təqdim ediblər. Ansamblın təqdim etdiyi Azərbaycan kinofilmlərinin musiqiləri əsasında popurilər, "Telefonçu qız" kinofilmindən "Xəyal", "Doğma nəğmələr", Ruhəngiz Qasımovanın "Anacan, dostum evlənir", "Yenilməz batalyon" kinofilmindən mahnı, xalq mahnısı "Laçın", xalq rəqsi "Uzundərə" və digər nömrələr tamaşaçıların ürəyincə olub.

***XQ***

# Əhməd Cavad haqqında kitab türk dilində

**Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdində Azərbaycan Mədəniyyət Mərkəzi Sahib İbrahimlinin "Əhməd Cavadın həyat və yaradıcılığının Gəncə dövrü" kitabını Ankarada türk dilində nəşr etdirib. Əsəri türk dilinə Konya Selcuk Universitetinin dosenti Təranə Həşimova çevirib.**




Kitabda istiqlal şairi Əhməd Cavadın həyatı, ədəbi fəaliyyətinin Gəncə dövrü əksini tapıb. Müəlif şairin qardaş Türkiyə ilə əlaqələrindən, Qafqaz–Türk İslam Ordusunun Azərbaycan xalqının azadlıq mübarizəsində dəstəyiyindən də bəhs edib.

Nəşrdə qeyd olunur ki, Əhməd Cavaddan Gəncə ədəbi mühitinin yetişdirdiyi istedadlı simalardan biri kimi söhbət açılıb. Bildirilir ki, repressiya qurbanı olmuş sənətkarın adı Azərbaycan ədəbi-bədii fikir tarixinə istiqlal şairi, bütün qəlbi ilə doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış söz ustadı kimi daxil olub.

***XQ***

İstiqlal mücahidləri

# Türkçülük örnəyi: Yusif Ziya Talıbzadə

## *O, Türküstanda bolşeviklərə qarşı savaşda şəhid olub*

**Yusif Ziya Talıbzadə həyatını türkçülük idealları yolunda misilsiz fədakarlıqlar göstərmiş istiqlal mücahidlərimizdəndir. O, bu missiyanı ömrünün sonuna qədər şərəflə daşımışdır. Bu dəyərli ziyalımız xalqımızın tarixində pedaqoq, siyasətçi, publisist, dramaturq və hərbçi kimi də dərin iz qoyub.**

Yusif Talıbzadə 1877-ci il yanvarın 22-də Tiflisdə Şeytanbazar məhəlləsində Zaqafqaziya şeyxülislamının müavini Axund Mustafanın ailəsində anadan olub. O, görkəmli Azərbaycan şairi, dramaturqu, pedaqoqu Abdulla Şaiqin böyük qardaşıdır.

Yusif İlk təhsilini Tiflisdəki Zaqafqaziya Ruhani İdarəsinin nəzdində fəaliyyət göstərən rüşdiyyə məktəbində alıb. 1894-cü ildə ailəsi ilə birlikdə Xorasana köçüb. Təhsilini burada davam etdirərkən sevimli müəllimi Yusif Ziyadan təsirlənərək özünə "Ziya" təxəllüsü götürüb. Atasının arzusu ilə İsfahanda sonra Mirzə Cəfər mədrəsəsinə daxil olaraq burada ruhani təhsili alıb. Bundan sonra isə təhsilini Bağdadda tamamlayıb. Türk, ərəb, fars və rus dillərini mükəmməl öyrənib.



1899-cu ildə anası ilə birlikdə Tiflisə qayıdıb. Burada Zaqafqaziya Ruhaniləri İdarəsində imtahan verərək axund rütbəsi alıb. Xidmət üçün Şah Abbas məscidinə təyinat alsa da, bundan imtina edərək, 1900-cü ildə Bakıya köçüb. Buradakı rus-tatar məktəbində pedaqoq kimi çalışmaq üçün yoxlama komissiyasından keçib. İmtahanı uğurla verdikdən sonra məktəbə şəriət müəllimi təyin edilib.

Bakıda o dövrün Hacı Zeynalabdin Tağıyev, Nəriman Nərimanov, Həbib bəy Mahmudbəyov və sair tanınmış insanları ilə tanış olub. Yusif Talıbzadənin 1902-ci ildə Azərbaycan dilinin qrammatikasına aid "Təhsili-qəvaid", 1903-cü ildə isə islam aləmində qadın tərbiyəsindən bəhs edən "Hədiyyəyi-nisvan", "Sərvət və səxavətilə məşhur cənab Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-əhvalı", "Müəllimüş-şəriə", 1904-cü ildə "Təəlümüş-şəriə", 1905-ci ildə "Həqiqəti-İslam", 1907-ci ildə "İslam tarixi", 1913-cü ildə "Türkiyə məktubları" kitabları işıq üzü görüb.

1900–1910-cu illərdə Bakının müxtəlif nəşriyyatlarında İslamla bağlı müxtəlif mövzularda 10-dan artıq kitabça və risaləsi çap edilib. Nəriman Nərimanovun "Nadir şah" əsərini fars dilinə çevirib. 1904-cü ildə Bakıda "İslam tarixi və tarixi-ənbiyaya dair məkanların nəqşəsi və İslam məmləkətlərinin xəritəsi" adlı xəritə çap etdirib.

Yusif Talıbzadə elmi-pedaqoji fəaliyyətlə yanaşı, o dövrün aparıcı qəzet və jurnallarında aktual mövzularda parlaq publisistik yazılarla çıxış edib. 1903-cü ildən etibarən "Şərqi-rus" qəzetində İslam dini ilə bağlı silsilə məqalələri dərc olunub. 1905-ci ildən 1913-cü ilə qədər isə "Həyat", "İrşad", "Füyuzat", "Tərəqqi", "Yeni Füyuzat", "Şəlalə" kimi qəzet və jurnallarla sıx əməkdaşlıq edib.

1910-cu ildən etibarən daha çox ictimai-siyasi fəaliyyətlə məşğul olub. 1910-cu ildə Türkiyədə keçirdiyi günlər haqqında "Türkiyə məktubları" adlı əsərini çap etdirib. Yusif Talıbzadə dramaturq kimi də qələminin sınayıb. "Ərmənusə" və "Əmir Xalid bin Vəlid" adlı 2 dram əsəri yazıb. "Ərmənusə" 1910-cu ildə, "Əmir Xalid bin Vəlid" faciəsi isə 1912-ci ildə "Nicat" cəmiyyətinin dram heyəti tərəfindən oynanılıb. 1911-ci ildə yaradılmış "Müsavat" partiyasının ilk üzvlərindəndir.

1912-ci ildə Yusif Ziya həyat yoldaşı Cənnət xanım və oğlu Tələt ilə birlikdə İstanbula köçüb. Burada hərbi məktəbdə təhsil alıb. Birinici Dünya müharibəsi illərində Balkanlarda savaşlara qoşulan azərbaycanlı könüllülərə rəhbərlik edib. Sonrakı dövrdə Qars, Ərdəhan və Batum cəbhələrində gedən ağır döyüşlərdə iştirak edib. Osmanlı ordusunda albay rütbəsinə qədər yüksəlib.

1918-ci ildə Qafqaz İslam Ordusu ilə bərabər Bakının azad olunması üçün Azərbaycana gəlib. Türklərin Bakıya doğru yürüşünü əngəlləməyə cəhd edən daşnaklara qarşı Göyçay yaxınlığında baş verən ağır döyüşdə "Yardım alayı"na rəhbərlik edib. Sentyabrın ortalarında isə Bakı uğrunda hərbi əməliyyatda şəxsi şücaətlər göstərib.

1919-cu il iyunun 10-da Azərbaycan Cümhuriyyətinin Dövlət Müdafiə Komitəsinin iclasında Bakı şəhəri və ətraf ərazilərdə yaşayan hərbi çağırış yaşına çatmış gənclər üçün hərbi hazırlıq təlimlərinin təşkil edilməsi qərara alınıb. Yusif Talıbzadə könüllü dəstələrin təşkili üzrə komissiyanın sədri təyin edilib.

Cümhuriyyət dövründə bir çox qəzet və jurnallarda, əsasən də "Azərbaycan" qəzetində siyasət, maarif və mədəniyyət mövzularına dair aktual məqalələr nəşr etdirib. Milli mətbuat tariximizin araşdırmaçısı, tarix elmləri doktoru, dosent Məmmədismayıl Mehdiyev qeyd etdi ki, Yusif Talıbzadə yüksək savadı, kəskin, prinsipial mövqeyi ilə seçilən publisistlərdən idi.

Yusif bəy 1919-cu ildə Osmanlı dövlətinin nümayəndə heyətinin başçısı kimi Təbrizə gedib. Burada erməni və aysorların yerli Azərbaycan türklərinə qarşı törətdikləri qırğınların qarşısını almaq və soydaşlarımızın yaşadığı kənd və şəhərləri qorumaq üçün Mirzə Əli Heyət (məşhur həkim, "Varlıq" jurnalının təsisiçisi və baş reedaktoru olmuş Cavad Heyətin atasıdır-müəllf) tərəfindən qurulmuş "İttihadi-İslam" cəmiyyətində Osmanlı dövlətini təmsil edib.

1920-ci ildə Sovet Rusiyasının Aprel işğalından sonra İran sərhədindən Azərbaycana keçmək istəyərkən həbs olunub. Nərimanovun göstərişilə həbsdən azad edilib. 1921-ci ilin fevral ayından Naxçıvan İnqilab Komitəsinin üzvü kimi fəaliyyətə başlayıb. General rütbəsində hərbi komissar vəzifəsinə təyinat alıb. Fəaliyyət göstərdiyi müddətdə bölgədə qırğınlar və talanlar törədən daşnak dəstələrinə qarşı mübarizə aparıb.

1921-ci ilin oktyabr ayında qısa müddət ərzində xarici işlər komissarı təyin olunub. Onun türk paşaları ilə yaxşı əlaqələrinin olması Naxçıvanın təhlükəsizliyini möhkəmlətməyə xidmət edib. 1922-ci ilin axırlarında Bakıya qayıdan Yusif Ziya burada Nərimanovla görüşüb, sovet rejiminə qulluq etmək istəmədiyini, bu quruluşla uyğunlaşa bilmədiyini deyib. Nərimanovdan Sovet İttifaqı sərhədlərini tərk etmək üçün rəsmi sənəd alaraq, Azərbaycanı tərk edib.

Yusif Ziya Talıbzadə Bakıdan Türküstana gedib. Burada əqidə və məslək dostları Ənvər paşa və Zəki Vəlidi Toğanla birlikdə bolşeviklərə qarşı döyüşən "Basmaçı hərəkatı"na qoşulub. 1923-cü il mayın 18-də Qızıl Orduya qarşı döyüşlərin birində ağır yaralanıb. Silahdaşları ilə birgə Amudərrya çayını üzüb keçərkən boğularaq dünyasını dəyişib.

Hörmətli oxucu! Sizə təqdim etdiyimiz bu şərəfli tarixçə böyük istiqlal mücahidi Yusif Ziya Talıbzadənin türkçülük ideallarına necə böyük sədaqət bəslədiyini və bu yolda canını belə əsirgəmədiyini nümayiş etdirir. Bu il yanvarın 22-də Bakıdakı Abdulla Şaiq adına muzeydə bir qrup ziyalı toplaşaraq Yusif Ziya Talıbzadənin xalqımızın azadlıq mücadiləsi tarixində danılmaz xidmətlərindən qədirbilənliklə söz açdılar. Sağ olsunlar, "Xalq qəzeti" olaraq bu sətirlərin müəllifini də dəvət etmişdilər.

Uzun illər bu muzeydə çalışmış, tanınmış kulturoloq, tarix elmləri doktoru, professor Minaxanım Əsədli XQ-yə qısa müsahibəsində bildirdi ki, Yusif Ziya Talıbzadə kimi görkəmli şəxsiyyətlərin parlaq həyat yolu gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün böyük əhəmiyyəti vardır. Bu barədə daha çox yazılmalı, radio və telekanallarda geniş, maraqlı verilişlər hazırlamalıdır.

Düşünürük ki, yeniyetmə və gənclərə Vətəni sevdirməyin ən yaxşı yolu onları xalqımızın şanlı tarixi keçmişi ilə yaxından tanış etməkdir. Yusif Ziya Talıbzadə kimi millət mücahidlərinin həyatı isə bugünkü və gələcək nəsillər üçün gözəl örnəkdir.

***Məsaim ABDULLAYEV***
***XQ***



# Qəzzanın taleyi siyasi oyuna çevrilir

**Prezident Donald Tramp ABŞ-ın Qəzzanı nəzarətə götürəcəyi ilə bağlı bəyanatında bildirib ki, bölgəni tərk edən fələstinlilər geri qayıtmamalı, qonşu ərəb dövlətlərinin ərazilərində yerləşdirilməlidirlər.**

Ağ evin sahibinin təklifi Yaxın Şərqdə kəskin etirazlarla qarşılanıb. Ərəb dövlətləri, eləcə də Avropa İttifaqı ölkələri hesab edirlər ki, bu, beynəlxalq qanunların kobud şəkildə pozullması deməkdir. Dünən BMT rəsmisi Nyu-Yorkda keçirdiyi brifinqdə Baş katib Antonio Quterreşin Trampın təklifi ilə bağlı narahatlığını dilə gətirib. Qeyd olunub ki, BMT rəhbərliyi ABŞ liderinin Qəzza əhalisinin məcburi köçürülmə planına qəti surətdə etiraz edir və bunu yolverilməz hesab edir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə Malayziyanın paytaxtı Kuala-Lumpurda "Yeni əsrdə Türkiyə və Malayziya strateji tərəfdaşlığı" devizi altında təşkil olunan görüş çərçivəsində çıxış edib. O, nitqində İsrail-Fələstin münaqişəsinə də toxunub. Deyib ki, heç kim Fələstin xalqını ikinci Nakbu (1948-ci ilin mayın 15-də fələstinlilərin öz torpaqlarından kütləvi qovulması-red) taleyi yaşamağa məcbur edə bilməz.

Xatırladaq ki, Qəzzada 2023-cü ilin oktyabrın 7-də HƏMAS-ın hücumu ilə başlanan və hər iki tərəfdən ağır zorakılıqlarla müşayiət olunan silahlı qarşıdurmadan artıq 15 aya yaxın vaxt ötür. Bu müddət ərzində 50 mindən çox insan həyatını itirib ki, onların da çoxu uşaq, qadın və ahıllardır. Ərazi xarabazara çevrilib. Buradakı binaların 80 faizi dağıdılıb.

Bu arada Tramp HƏMAS-dan bütün girovları fevralın 15-i günortaya qədər buraxmağı tələb edib, əks halda Qəzza zolağında atəşkəs rejiminin pozulacağı ilə hədələyib. "Əgər onlar şənbə günü saat 12:00-a qədər qaytarılmasa, düşünürəm ki, bütün razılaşmaları ləğv etməyin vaxtı çatıb", - Tramp söyləyib. O, jurnalistin HƏMAS bu tələbi yerinə yetirməzsə, ABŞ-nin nə edəcəyi barədə sualına cavab verməyib.

HƏMAS-ın sözçüsü Sami Əbu Zöhri isə "Reuters"ə açıqlamasında vurğulayıb ki, tərəflərin artıq razılaşdırılmış sazişinə müdaxilə yolverilməzdir: "Tramp yadda saxlamalıdır ki, israilli əsirlərin azadlığa buraxılmalarının yeganə yolu İsrail və HƏMAS arasında atəşkəsə hörmətlə yanaşmaqdır".

O həmçinin bildirib ki, yalnız sazişin şərtləri qaydasınca yerinə yetiriləcəyi təqdirdə, əsirlər öz evlərinə qayıda biləcəklər. Hədə-qorxu ilə danışmağın mənası yoxdur. Bu cür ritorika yalnız işləri çətinləşdirir.

Qeyd edək ki, HƏMAS hərəkatı bu il fevralın 15-nə planlaşdırılan daha bir qrup girovun azad edilməsi prosedurunu təxirə salmaq qərarına gəlib. Qeyd edilib ki, bu qərar İsrail tərəfindən atəşkəs razılaşmasına əməl olunmadığına görə verilib.

İsrail Ordusu isə HƏMAS-ın girovların azad edilməsini dayandırmaq niyyəti barədə bəyanatından sonra Cənub Komandanlığının məsuliyyət zonasında döyüş hazırlığı səviyyəsini artırıb. İsrail rəsmisi bildirib ki, ərazinin əlavə bölmələrlə gücləndirilməsi barədə qərar qəbul edilib.

Hazırda Qəzza sakinləri ağır humanitar fəlakətlə üzləşiblər. Əhalinin böyük əksəriyyəti ən zəruri ərzaq məhsullarının çatışmazlığından ciddi əziyyət çəkir. Atəşkəs yenidən pozularsa, vəziyyət bölgədə daha da ağırlaşa bilər.

***Məsaim ABDULLAYEV***
***XQ***

Qadınlar böyük idmanda



**9 yaşlı Fidan İsgəndərova** 3 ilə yaxındır ki, məşqləri davam etdirir. Hazırlığa böyük həvəs və maraqla qatılır. Deyir ki, gələcəkdə müəllimi kimi nailiyyətlər qazanacaq.

**Damla Bayramova** da 9 yaşdadır. O, Olimpiya çempionu olmaq arzusundadır:

– Cüdonu bizə Kifayət müəllimə sevdirib. Anam bu yolda mənə böyük dəstək verir. Bir çox yarışlarda iştirak edib, medallar qazanmışam. Son yarışda –"Xəzri cüdo turniri"ndə 3-cü yeri tutmuşam.

**Aydan Həsənova** da yaşıdları kimi böyük arzularla yaşayır. İki ildir ki, zalda məşqləri davam etdirir. Düşünür ki, gələcəkdə böyük qələbələr qazana bilər. Aydanın anası da qızına bu çətin yolda dəstək olur.

# Döyüşə cüdoçu qızlar da gedir

**Qızların döyüş idman növləri ilə məşğul olmasına cəmiyyətin münasibəti birmənalı deyil. Əski düşüncələri yox etmək üçün təbii ki, qızların kütləvi şəkildə idmanla, o cümlədən döyüş növləri ilə də məşğul olmaları və bu sahədə davamlı qələbələrin qazanılması vacibdir.**

Necə deyərlər, zərif cinsin nümayəndələri güclülərin mübarizəsində aciz olmadıqlarını sübut etməlidirlər. Bu prosesdə gücü, əzmkarlığı, qətiyyəti, qələbələri ilə nümunə olmuş idmançılar mühüm rol oynaya bilərlər.

Azərbaycan qadın cüdosunun ən parlaq siması, Kifayət Qasımovanın atdığı təqdirəlayiq addım qadın idmançılarımıza nümunədir. Məhz onun arzusu və istəyi ilə Qadın Cüdo Klubu yaradılıb ki, burada da, zərif cinsin nümayəndələri arasında gələcəyin ən perspektivli tatami ustaları yetişə bilər. Onu da qeyd edək ki, Kifayət xanım, həm də "Judo Club 2012"nin qadınlardan ibarət komandasının baş məşqçisidir.

Qızların məşqlərini yaxından izləmək, hazırlıqları ilə tanış olmaq üçün metronun "Əhmədli" stansiyası yaxınlığındakı Qadın Cüdo Klubunun zalına istiqamət alırıq. Övladlarını məşqə gətirən valideynlərlə ayaqüstü söhbətimizdə bu uşaqların hər birinin zala Kifayət Qasımova kimi ad-san qazanmaq arzusu ilə gəldiyini öyrənirik. Deyirlər ki, aylar keçdikcə, övladlarında daha güclü potensial görürlər ki, bununla da hədəflər daha da böyüyür. Bu uşaqların hər biri Dünya, Olimpiya çempionu olmaq istəyir.

Zala daxil olanda məşqlər artıq başlamışdı. Qızlar turnik, kanat, paralel qollar və digər idman alətlərində isinmə hərəkətləri edirdilər. Oturub-durma, jim, asta qaçış daha sonra tatamidə məşqlərlə davam edir. Cütlər ayaq üstə və oturaq vəziyyətdə müəyyən fəndləri dəqiq yerinə yetirmək üçün böyük səy göstərir, üstünlüklərini nümayiş etdirməyə can atırlar. Məşqçi qızlara daha diqqətli olmağı tövsiyə edir. Onların arasında yaşları daha az olanlar atma fəndlərini çox ehtiyatla yerinə yetirirlər.

Məşqdən sonra həm idmançı qızlar, həm də onların valideynləri ilə söhbət edirik. **Yeniyetmələrin son Azərbaycan birinciliyində bürünc medal qazanan Məsumə Məmmədlinin anası Günel xanım qızının cüdoya sevgisini dilə gətirdi:**

– Qızım cüdo məşqlərində həvəslə iştirak edir. Bu idman növü ilə cəmi 1 il yarım məşğul olmasına baxmayaraq, Kifayət xanımın səyləri nəticəsində artıq yüksək nəticələr qazanmağa nail olub. Bir sıra yarışlarda fərqlənib. Azərbaycan birinciliyində 3-cü yeri tutduğu üçün yığma komandanın heyətində yer alıb. Məsumənin cüdoya sevgisi sonsuzdur. Hədəflər böyükdür. İnanırıq ki, gələcəkdə qarşıya qoyduğumuz məqsədə çata biləcəyik.

**Pəri Məmmədlinin anası Fərqanə xanım klub yaranandan qızının da məşqlərə qatıldığını dedi:**

– Qızımın əvvəlcə özünümüdafiə məqsədilə bu idman növündə məşğul olmasını istəyirdik. Zaman keçdikcə, onun cüdoya həvəsini və marağını hiss etdik. Kifayət Qasımovanın əldə etdiyi nailiyyətlər qızlarımız üçün bir stimuldur. Qızım artıq 3 ilə yaxındır ki, bu idman növü ilə məşğul olur. Federasiyanın təşkil etdiyi yarışlarda bir sıra nailiyyətlər qazanıb. Yeniyetmələr arasında son Azərbaycan birinciliyində 3-cü yer uğrunda mübarizədə zədələndi və 5-ci nəticə göstərdi.

Məşqlər sona çatsa da, komandanın bəzi üzvləri, əsasən də böyüklər tatamidən ayrıla bilmirlər. Daha balacalar isə qolları, kürəyi və bütün bədəni gücləndirən kanatla yuxarı doğru hərəkət edir, şən səslə yarışırlar. Qızlardan yaşca ən kiçiyi, 5 yaşlı Zumra Mirzəliyeva onu zaldan götürməyə gələn atasına öyrəndiyi fəndləri göstərməyə çalışır. Qızcığaza yaxınlaşıb, hazırlığın necə keçdiyini soruşuruq. O isə "Məşqlər nə tez qurtardı. Axı mən heç yorulmadım ki", – deyir.

Əslində, bu qızların heç biri yorğun görünmürdü. Kimi tatami üzərində, kimi idman alətlərində hərəkətləri davam etdirir, bəziləri isə məşqçinin ətrafında dövrə vuraraq hazırlıqla bağlı onun fikirlərini bilmək istəyirdilər.

**Elə Kifayət xanım da məmnun görünürdü. Bizimlə söhbətində də bunu etiraf etdi:**

– Həmişə arzulamışam ki, oğlanlar kimi, qızlar da döyüş növləri ilə fəal şəkildə məşğul olsunlar. Güləşdiyim vaxtlarda düşünürdüm ki, karyeramı bitirəndən sonra məşqçilik edəcəyəm. Qadın Cüdo Klubunu yaratmağı arzulayırdım. Şükür Allaha, istəyimi yerinə yetirdim. Dəstəyə görə Cüdo Federasiyasına təşəkkür edirik. Bu cür hər bir şəraiti olan zalda gələcəyin potensiallı cüdoçularını yetişdirə bilərik. Hazırda qrupda 6 yaşdan 13–14 yaşadək 60-a yaxın qız cüdonun sirlərinə yiyələnir. 2 ildən çoxdur ki, fasiləsiz məşqləri davam etdiririk. Düşünürəm ki, qızlarımızın cüdo idman növündə kütləviliyini təmin edə bilərik. Artıq nailiyyətlərimiz də var. Qızlarımızın biri Azərbaycan birinciliyində gümüş medal qazanıb. 2-si isə zədə səbəbindən mükafatçılar sırasına düşə bilmədi.



Qadın Cüdo Klubunda gələcəyin Avropa, Dünya, Olimpiya çempionlarını görmək diləyi ilə bu gözəl arenadan ayrılırıq. Arzu edirik ki, müxtəlif idman növləri üzrə qızlar üçün belə klub və cəmiyyətlərin sayı daha çox olsun.

***Leyla QURBANOVA***
***XQ***

"Mingəçevir Bazar" QSC səhmdarlarının nəzərinə!

1 aprel 2025-ci il saat 12.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

1. "Mingəçevir Bazar" QSC-nin 2024-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Qəbul edilmiş ərizə və müraciətlərə baxılması.
3. Digər məsələlər.

Ümumi yığıncaqda səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakları vacibdir.

Telefon – (02427) 5-62-49.

Ünvan – Mingəçevir şəhəri, H.Əliyev prospekti 53.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 31 (30725) 12 fevral 2025-ci il, çərşənbə

## İdman

## Şəhriyar Məmmədyarov finala vəsiqə qazandı



**Şahmat üzrə Azərbaycan çempionatında artıq finalçılardan biri məlum olub.**

Yarımfinalda hər iki oyunda Misrətdin İsgəndərovu məğlub edən Şəhriyar Məmmədyarov finala vəsiqə qazanıb. Teymur Rəcəbov Rauf Məmmədovla cavab oyununda da heç-heçə etdiyindən qalib tay-brekdə müəyyənləşəcək. Qadınların yarışında da yarımfinalçıların nəticəsində bərabərlik qeydə alınıb. İlk oyunda Gülnar Məmmədovaya uduzan Günay Məmmədzadə cavab görüşündə qələbə qazandığından hesab 1:1 olub. Digər iştirakçılar Gövhər Beydullayeva ilə Ülviyyə Fətəliyevanın hər iki görüşü heç-heçə ilə başa çatıb. Qaliblər tay-brekdə bilinəcək.

Qeyd edək ki, kişilərin yarışında mükafat fondu 60 min, qadınlarda isə 30 min manat təşkil edir.

## Antalyada gümüş medal



**Azərbaycan taekvondoçusu Ülvi Məmmədov (37 kq) Antalya şəhərində keçirilən "Turkish Open" beynəlxalq turnirində uğurla çıxış edib.**

Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, "Kristal Abşeron" klubunun üzvü finala qədər 5 rəqibini üstələyib.

Təmsilçimiz həlledici mərhələdə türkiyəli rəqibinə uduzaraq fəxri kürsünün ikinci pilləsində yer alıb.

## Futbolçumuzun Türkiyə debütü



**Azərbaycan yığmasının futbolçusu Coşqun Diniyevin "Çorum"dakı debütü uğurlu alınıb.**

Millimizin oyunçusu Türkiyə 1-ci Liqasının 24-cü turunda komandanın heyətində keçirdiyi ilk oyunda 14 və 49-cu dəqiqələrdəki dəqiq zərbələri ilə fərqlənib.

29 yaşlı yarımmüdafiəçi qış fasiləsində "Bandırmaspor"dan "Çorum"a keçib. Qarşılaşma 2:0 hesabı ilə yekunlaşıb.

*Leyla QURBANOVA*
*XQ*

*Foto-reportaj*

# Şəmkirin Yasamal aşırımında "yaşıl işıq"



**Yəqin ki, çoxunuz Şəmkirin Yasamal aşırımını qalxmısınız. Sərt döngələrinə, yüksəkliyinə görə, Ağsu dolaylarından geri qalmır. Heç 400-500 metr getməmiş Şəmkir şəhəri, bax, bu şəkildəki kimi sanki ovcunun içində görünür. Bir qədər də yuxarı qalxdıqdan sonra şəhərə, hətta binokldan da normal baxmaq olmur...**



Elə ki, qış ayları gəldi, yerə qar düşdü, avtomobillərin gediş-gəlişi nəinki çətinləşir, həm də həyat üçün çox təhlükədir, hər cür bədbəxt hadisə baş verə bilər.

Əvvəllər bu aşırımları, ən azı, 40-50 dəqiqəyə keçmək olurdu. Bir neçə il əvvəl ölkə Prezidentinin sərəncamı ilə Şəmkir–Gədəbəy yolu çəkildikdən sonra indi həmin məsafəni cəmi 10 dəqiqəyə qət etmək mümkündür.

...Bu qarlı-şaxtalı günlərdə aşırımı keçmək yenə riskli olduğu halda yola düşdük. Lakin bu dəfə yuxarı qalxdıqca tamamilə başqa bir mənzərə gördük. Yollar açıq idi! Qar isə aman vermir, yağır, küləyə qarışıb özünü ora-bura vururdu. Əyinlərində xüsusi geyim forması olan adamlar yola qum səpələyir, buz bağlamış yerləri təmizləyir, nəqliyyatın normal hərəkəti üçün şərait yaradırdılar.

Maşınımızı yolun bir kənarında saxlayıb onlarla söhbət edirik. Öyrənirik ki, Şəmkirin dağlıq ərazilərinə yağan qarın yollarda, xüsusilə Yasamal aşırımlarında sürücülər üçün çətinliklər yaratmasının qarşısının alınması üçün rayon icra hakimiyyəti başçısı yanında fövqəladə hallar komissiyası aidiyyəti təşkilatlarla birgə gücləndirilmiş iş rejiminə keçib.



Yolların buz bağlaması nəticəsində nəqliyyat vasitələrinin və piyadaların hərəkətində yarana biləcək problemlərin əvvəlcədən qarşısını almaq məqsədilə ötən gecə saatlarından başlayaraq qabaqlayıcı tədbirlər görülür. Rayon 25 saylı Yol İstismar İdarəsi və Şəmkir Rayon Kommunal Müəssisələri Kombinatının dəstəyi ilə yollara duz-qum qarışığı tökülüb, ehtiyac olan yerlərdə isə texnika vasitəsilə təmizləmə işləri aparılıb və bu iş indi də davam etdirilir.



Elə buna görə də rayon mərkəzində, dağ kəndlərində və yollarda nəqliyyatın hərəkəti tam bərpa edilib. Hazırda hər hansı bir ciddi problem müşahidə olunmur. Buna baxmayaraq, Şəmkir RİH başçısı yanında Fövqəladə Hallar Komissiyası tərəfindən aidiyyəti təşkilatlarla birgə aparılan işlər tam nəzarətdə saxlanılır. Bu məqsədlə rayonun xidmət təşkilatlarında da 24 saat hazır vəziyyətdə olan növbətçi briqadalar yaradılıb. Həmin briqadalar yarana biləcək fəsadların qısa zamanda aradan qaldırılmasını təmin edəcək.

...Yenə qar yağır. Daha əvvəllər olduğu kimi zəif sürücülər, hətta bəzi təcrübəlilər də aşırımın ətəyində dayanıb qarın kəsməyini, yolun buzdan əriməsini gözləmir, "yolçu yolda gərək" – deyib dolayları qalxırlar. Bilirlər ki, onları yuxarıda sürücülərə "yaşıl işıq" yandıran xeyirxah adamlar gözləyir...

*Hm let QASIMOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*

## Sağlamlıq

# Böyrək – ona nə gərək?



**Alternativ tibb mütəxəssislərinin fikrincə, böyrəklərin işini tənzimləmək və onları təmizləmək üçün pəhrizə əməl etmək, düzgün qidalanmaq vacibdir. Böyrəklərin yaxşı işləməsi üçün kalium, maqnezium, C, E, D vitaminli qidalar vacibdir.**

Fitoterapevtlər bildirirlər ki, böyrək problemi olanlar hər cür qida əlavələrindən, süni sintetik vitaminlərdən uzaq durmalıdırlar. Onların fikrincə, böyrəklər üçün təbii təmizləyici bitki lifləridir. Onlar özlərinə duzu, toksinləri hopduraraq orqanizmdən xaric edirlər. Liflər istifadə etdiyimiz bir çox məhsulların tərkibində olur. Bunlar təzə, şirəsi çəkilmiş, buxarda bişmiş tərəvəzlər, meyvə və giləmeyvələr, taxıl məmulatı – yulaf, vələmir, təmiz bitki yağları, yağsız kəsmik, qatıq, düyü, qarabaşaq, qarğıdalı və buğda sıyıqları, qarpız, yemiş, balqabaq tumları, kələm, brokkoli, turş alma, kök, göyərtilərdən şüyüd, cəfəri, nanədir.

Mütəxəssislər faydalı qidalarla yanaşı, böyrəklərin işinə mənfi təsir göstərən soyuq qidalar, kolbasa, sosis və konserv məhsullarından, duzlu, acı qidalardan, şəkər, konfet, ədviyyat, heyvani yağ və piydən də uzaq durmağı tövsiyə edirlər. İspanaq və turşəng az miqdarda faydalıdır. Lakin bu göyərtilərin tez-tez qəbulu böyrəklərdə daşların əmələ gəlməsinə səbəb ola bilər. Zülalla zəngin qidaların həddindən artıq istifadəsi də böyrək daşı və digər böyrək xəstəliklərinin yaranmasına səbəb ola bilər.

*Z.HÜSEYNLİ*
*XQ*

# Mask süni zəkaya nəzarəti də ələ keçirmək istəyir



**"X" sosial şəbəkəsinin qurucusu və "Tesla" şirkətinin baş direktoru İlon Mask "Open AI"yə (süni intellekt araşdırma mərkəzi) nəzarət edən qeyri-kommersiya təşkilatını satın almaq üçün 97,4 milyard dollar təklif edib.**

Onun bu iddiasını "OpenAI"nin baş direktoru Sam Altman müsbət qarşılamayıb. Bu təklifə cavab olaraq Bazar Altman dərhal "X"də yazıb: "Xeyr, təşəkkür edirəm, amma istəsəniz, "Twitter"i 9,74 milyard dollara ala bilərik".

Mask bildirib ki, "OpenAI" qeyri-kommersiya təşkilatından kommersiya məqsədli təşkilata keçməyə çalışır. Onun sözlərinə görə, ən yaxşı AI modellərini inkişaf etdirmək üçün lazım olan kapitalı təmin etmək lazımdır.

Qeyd edək ki, bu təklif digər iri sərmayəçilər tərəfindən də dəstəklənir. Təklifi müsbət, yaxud mənfi dəyər-




ləndirmək səlahiyyəti isə "OpenAI"nin idarə heyətinin üzərinə düşür.

*S.FİDAN*
*XQ*

# Turizm şirkətimiz beynəlxalq sərgidə



**Azərbaycanda fəaliyyət göstərən "Zakher Travel" turizm şirkəti Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində təşkil olunan "STM 2025" İkinci Beynəlxalq Turizm Sərgisində ölkəmizi təmsil edir.**

Sərgidə Azərbaycanın turizm imkanları, gəzməli-görməli məkanları, milli mətbəxi, müxtəlif növ turizm marşrutları və tur paketlər sərginin ziyarətçilərinə təqdim olunur.

Sayca ikinci dəfə keçirilən bu sərgidə 35 ölkədən 185 iştirakçı öz ölkələrini və xidmətlərini nümayiş etdirirlər.

Sərginin açılış günündə ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev və diplomatik korpusun əməkdaşları Azərbaycan pavilyonunu ziyarət etmiş, iştirakçılarla və sərginin ziyarətçi turizm şirkətləri ilə həmsöhbət olmuşlar.

*XQ*

## HAVA

# Yağmursuz, duman və çiskin...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 12-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 1° şaxtadan 2°-dək isti, gündüz 3-7° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 772 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şərq rayonlarında yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 5-10° , yüksək dağlıq ərazilərdə 13-18°, gündüz 0-5° şaxta olacaq. Bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

*Q. QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3088
SİFARİŞ 322
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00